KHAZAR REVIEW

# XƏZƏR XƏBƏR

ELMİ-KÜTLƏVİ, ƏDƏBİ-PUBLİSİSTİK TOPLU

№ 348 Fevral 2016



khazar-review.khazar.org

AYLIQ DƏRGİ

ISSN 2218-2772

# AVRASİYA AKADEMİYASININ "AVRASİYA ƏFSANƏSİ" KUBOKU

" Avrasiya Əfsanəsi" - Avrasiya Akademiyası üzvlərinə və birinci növbədə onun beş qurucu üzvünə təqdim olunmaq üçün nəzərdə tutulan, böyük zövqlə hazırlanmış mükafatın – kubokun simvolik adıdır. Tasisçi H. İsaxanlının şərtləri və tövsiyası əsasında tanınmış xalça rəssamı Afaq Kərimovanın layihəsi əsasında Şanxayda hazırlanmış kubok bilik, mədəniyyət, elm, müdriklik təmsil edən milli və müasir atributları birləşdirir. Kubok iki hissədən-şəffaf büllur dekorativ vaza və yuxarıda sadalanan atributları əks etdirən qızılı metal başlıqdan ibarətdir. Hündürlüyü -38 sm, diametri - 8 və 12 sm olan kubokun metal hissəsi vazanın üzərini örtən təsviri sənət rəmzi kimi palitraya sıxılmış boyaları xatırladan müxtəlif rəngli daşlarla bəzədilib.

Onun üzərində elm və təhsilin atributu kimi vərəqləri açılmış qanadlı kitab, musiqi aləminin simvolu kimi cəng-lira təsvir edilib. Elementlərin hər birində bəzən stiliza olunmuş milli ornamentlər işlənib. Qum saatı formasında hazırlanmış vazanın daxilində qızılı Abşeron qumu süzülür. Qum saatı funksiyasını daşıyan kubokun üzərində cızılmış butaların çərxi istiqamətdə gəlimli - gedimli olması və yenidən təkrarlanması əbədiyyətin rəmzi mənası kimi işlənib.



# İÇİNDƏKİLƏR


Avrasiya Akademiyasının rəsmi açılışı və "Avrasiya Əfsanəsi" kubokunun təqdim olunması mərasimi ........ 4

Universitet xəbərləri........ 25

"Elm və Sənət Məclisi"nin 65-ci məşğələsi ........ 26

Gənc ədəbiyyatşünaslara "İlin alimi" mükafatı təqdim olundu ........ 30

"Xəzər"də yubileylər ........ 32

*Hamlet İsahanlı.* Tarihi hafiza ve insanlık aleyhine suçlar ........ 34

Xəzər Universitetinin tələbəsi sosial şəbəkədə məşhurlaşdı........ 40

"Xəzər"in tələbələri beynəlxalq tədbirdə ........ 54

Xəzər Universiteti "Tələbə dünyası" verilişində ........ 56

*Səməd Vəkilov.* Vəkil Akif Əlizadə haqqında........ 57

Beynəlxalq Multikulturalizm Qış Məktəbinin iştirakçıları Binəqədi rayonunda........ 58

NDU xəbərləri........ 64

*Valida Karimova.* The English Language for Global Communication: Perspective of Youth........ 70

*Justin Worland.* Scientists Confirm Einstein's Theory of Gravitational Waves ........ 73

Elvin Teymurzadə. Cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətləri və qərarları üzərində məhkəmə nəzarətinin praktiki xüsusiyyətləri ........ 74



1995-ci ilin yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

Redaksiya heyəti:
Camal Mustafayev
Əjdər Ağayev
Alla Axundova
Şahin Fazil
Knyaz Aslan

İngilis dilində mətnlərin redaktoru:
Marta Lauri

Rəssam:
Mir Rafiq Əbdülrəhimov

Kompüter tərtibatçısı:
Nigar Aydəmirova

Foto:
Multimedia Mərkəzi

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published since January 1995

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isaxanli

Associate editors:
Alirza Balayev

Editorial member:
Jamal Mustafayev
Ajdar Aghayev
Alla Akhundova
Shahin Fazil
Knyaz Aslan

Editor of English Texts:
Martha Lawry

Design by:
Mir Rafig Abdulrahimov

Computer graphics:
Nigar Aydemirova

Photo:
Multimedia Centre

# AVRASİYA AKADEMİYASININ RƏSMİ AÇILIŞI VƏ "AVRASİYA ƏFSANƏSİ" KUBOKUNUN TƏQDİM OLUNMASI MƏRASİMİ

***Avrasiya Akademiyasının yaranma tarixi.*** *2012-ci ildə bir qrup intellektuallar, elm və sənət adamları arasında həm beynəlxalq, həm də regional mahiyyət daşıyan bir akademiyanın yaradılması barədə çox sayda məsləhətləşmələr oldu. Akademiyanın təsisçiləri, əsas prinsipləri, seçilmiş üzvlərə veriləcək mükafatın ideyası, elm, texnologiya və incəsənətin müxtəlif sahələrində fərqlənən şəxslərə veriləcək medallar, akademiyanın adı və digər məsələlər haqqında ümumi fikrə gəlindi. 5 qurucu üzv Azərbaycan, Türkiyə və ABŞ vətəndaşıdır: professor* ***Halil İnalcık****, professor* ***Lütfi Zadə****, professor* ***Mahmut Gazi Yaşargil****, bəstəkar* ***Arif Məlikov*** *və professor* ***Hamlet İsaxanlı****. Avrasiya Akademiyasının Baş idarəsinin Azərbaycanda olması qərara alındı. Avrasiya Akademiyası 28 sentyabr 2012-ci ildə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən qeydiyyatdan keçdi. Üzvlərə veriləcək və adı "Avrasiya Əfsanəsi" olacaq mükafat, həmçinin Avrasiya Akademiyasının 5 medalı (İbn Sina, Nəsirəddin Tusi, İbn Xəldun, Mirzə Fətəli Axundzadə və Üzeyir Hacıbəyli medalları) hazırlandı.*

***"Həqiqəti dərk etməyə və gözəlliyi duymağa can at"*** *– bu, Avrasiya Akademiyasının devizidir. Elm həqiqəti dərk etməyə, sənət gözəlliyi duymağa can atır. Avrasiya Akademiyası elmi və sənəti yanaşı tutan, hər ikisinin inkişafına töhfə verməyə, hər iki sahədə böyük işlər görən insanları qiymətləndirməyə can atır.*



Yanvarın 29-da Xəzər Universitetinin Mərmər salonunda Avrasiya Akademiyasının rəsmi açılışı və "Avrasiya əfsanəsi" kubokunun təqdim olunması mərasimi keçirildi.

Mərasimdə Avropa, Asiya və Amerikanın müxtəlif ölkələrindən qonaqlar, görkəmli elm, ədəbiyyat və incəsənət xadimləri, elm və təhsil təşkilatçıları, hökumət və Milli Məclis üzvləri, səfirlər, şirkət başçıları və media mənsubları iştirak edirdilər. Mərasim Xəzər Universitetinin internet televiziyası və internet radiosu ilə canlı yayımlanırdı.

Mərasimdə qurucu üzvlərin üçü – professor **Mahmut Gazi Yaşargil**, bəstəkar **Arif Məlikov** və professor **Hamlet İsaxanlı** iştirak edirdilər.

100 yaşlı professor Halil İnalcık və 95 yaşlı professor Lutfi Zadə səhhətlərinə görə bu məclisdə iştirak edə bilmirdilər. Açılış mərasimindən əvvəl Avrasiya Akademiyasının digər qurucu üzvləri onları ziyarət etmək, Avrasiya Akademiyasının qurucu üzvü kimi onları mükafatlandırmaq üçün Kaliforniyaya-Berkli Universitetinə və Ankaraya - Bilkent Universitetinə səfər etmişdilər. Onlara "Avrasiya Əfsanəsi" kuboku və diplom təqdim olundu.

Mərasim Xəzər Universitetinin Kamera orkestrinin kiçik konsertindən sonra elm tarixi, Avrasiya Akademiyası və onun qurucuları haqqında filmin nümayişi ilə başlandı.

Sonra Avrasiya Akademiyasının mərasimdə iştirak edən üç qurucu üzvünə "Avrasiya Əfsanəsi" kuboku və akademiyanın qurucusu sənədi təqdim olundu. Professor Mahmut Gazi Yaşargilə kuboku və sənədi Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli və Türkiyə Cümhüriyyətinin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Alper Coşkun, bəstəkar Arif Məlikova Moldova Elmlər Akademiyasının Humanitar və İncəsənət Elmləri bölməsinin sədri Viktor Tsvirkun və TUBİTAK-ın, Türkiyə Elm və Texnoloji Araşdırma Qurumunun başqan yardımçısı Orkun Hasekioglu, professor Hamlet İsaxanlıya Gürcüstan Milli Elmlər Akademiyasının üzvü Nodar Mıtagvaria və Türkiyə Səhiyyə İnstitutları başqanı, Türkiyə Cümhüriyyətinin Milli Elmlər Akademiyasının üzvü Fahrettin Keleştimur təqdim etdilər.

Aparıcılar tərəfindən Avrasiya Akademiyasının ünvanına təbrik göndərmiş təsisatlar elan olundu:

Kral Mühəndislik Akademiyası (Böyük Britaniya Birləşmiş Kralligi); Britaniya Akademiyası; Edinburq Kral Cəmiyyəti; Milli Elmlər Akademiyası (ABŞ); Milli Mühəndislik Akademiyası (ABŞ); Rusiya Elmlər Akademiyası; Lincei Milli Akademiyası (İtaliya); İsvec Kral Elmlər Akademiyası; İsveçrə İncəsənət və Elmlər Akademiyası; Belcika Kral Elm və Sənət Akademiyası; Elmlər Akademiyası, Fransa İnstitutu; Acatech – Milli Elm ve Mühəndislik Akademiyası (Almaniya); Max Planck Cəmiyyəti (Almaniya); "Leopoldina" Alman Milli Elmlər Akademiyası; Avstriya Elmlər Akademiyası; Macarıstan Elmlər Akademiyası; Çex Elmlər Akademiyası; Latviya Elmlər Akademiyası; Estoniya Elmlər Akademiyası; Hind Elmlər Akademiyası; Pakistan Elmlər Akademiyası; İran İslam Respublikası Elmlər Akademiyası; İslam Dunyası Elmlər Akademiyası; İslam Tarixi, İncəsənəti və Mədəniyyətini Araşdıran İslam Əməkdaşlıq Araşdırma Mərkəzi (İstanbul, Türkiyə); Çin Muhəndislik Akademiyası; Milli Elmlər Akademiyası (Koreya Respublikası); Yaponiya Akademiyası; Dünya Elmlər Akademiyası; Dünya İncəsənət və Elmlər Akademiyası.

Təbrik məktublarından biri – İsveçrə İncəsənat və Elmlər Akademiyasının Prezidenti Dr. Maurice Campagna`nın məktubu iştirakçıların nəzərinə çatdırıldı:

*Zati-aliləri!*
*Xanımlar və cənablar !*
*Hörmətli həmkarlar !*

*Avrasiya Akademiyasının açılışı münasibətilə təbrik göndərmək mənim üçün böyük bir şərəf və zövqdür. Təəssüf edirəm ki, bu vacib mərasimdə mən şəxsən iştirak edə bilmirəm. Buna səbəb 2016 - cı ilin əvvəlində mənim İsveçrə İncəsənət və Elmlər Akademiyasının yeni prezidenti kimi səlahiyyətlərimin başlamasıdır.*

*Bu gün Avrasiya Akademiyasının yaranması çox vacibdir və böyük perspektiv vəd edir. Qurumun yaranmasında əzm göstərən, müxtəlif ölkələrdən olan beş görkəmli şəxsiyyətin rolu böyükdür. Mən şəxsən onlara və sizin hamınıza təhsil sahəsinə, tədqiqat və innovasiyalara yardım etmək üçün göstərdiyiniz bu cəhddə böyük uğurlar arzu edirəm.*

*Sonda, ən əsası, bizim missiyamız akademik muxtariyyətin və azadlığın əhəmiyyətli olduğunu əks etdirir. Dövlətin elmi müəssisəyə müdaxiləsi rast gəlinən və uzaq olunması gərəkən ümumi bir təhlükədir. Bu nəcib məqsəd dünyanın, İsveçrə də daxil olmaqla, əksər milli konstitusiyalarının təməlini təşkil edir.*

*Bu fikirlərlə Bakıda sizin hamınızla xoş bir görüş arzu edirəm və Avrasiya Akademiyasının uğurlarının davamını gözləyirəm.*











Təbrik teleqramlarının elanı başa çatdıqdan sonra qonaqlara söz verildi. Ekologiya və təbii sərvətlər naziri Hüseyn Bağırov, Moldova Elmlər Akademiyasının Humanitar və İncəsənət Elmləri bölməsinin sədri Viktor Tsvirkun, TUBİTAK-ın, Türkiyə Elm və Texnoloji Araşdırma Qurumu başqan yardımçısı Orkun Hasekioglu, Türkiyə Səhiyyə İnstitutları başqanı, Türkiyə Cümhüriyyətinin Milli Elmlər Akademiyasının üzvü Fahrettin Keleştimur, Gürcüstan Milli Elmlər Akademiyasının üzvü Nodar Mıtagvarıa, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli çıxış etdilər.

Mərasimdə Avrasiya Akademiyasının qurucu üzvləri akademiyanın ilk üzvünü seçdiklərini bildirdilər. Söz professor Hamlet İsaxanlıya verildi. O, ABŞ vətəndaşı Əli Cavanın üzv seçildiyini elan etdi və onun elmi fəaliyyəti haqqında məlumat verdi. Əli Cavan səhhəti ilə əlaqədar olaraq iştirak etmədiyinə görə "Avrasiya Əfsanəsi" kuboku və diplom rəmzi olaraq ABŞ-ın Azərbaycandakı səfirliyinin İctimai əlaqələr üzrə başçısı Stefen Qaysa təqdim olundu.

Xəzər Universiteti adından Avrasiya Akademiyasına hədiyyə - Xəzər Universiteti Mədəniyyət mərkəzində mərkəzin direktoru, xalçaçı rəssam Afaq Kərimovanın dizaynı və rəhbərliyi altında tələbə və müəllimlər tərəfindən hazırlanmış "Nizami xalçası" qurucu üzvlərə təqdim edildi.

Sonra Avrasiya Akademiyasının yaranmasında xidmətlərinə görə Xəzər Universiteti Direktorlar və Qəyyumlar Şurasının müşaviri Nailəxanım İsayevaya və Avrasiya Akademiyasının kubok və medallarının dizaynının müəllifi xalçaçı rəssam Afaq Kərimovaya təşəkkür elan olundu.

Beləliklə, Azərbaycanın və müxtəlif ölkələrin görkəmli elm və sənət xadimlərinin iştirakı ilə tarixi hadisə baş verdi: Avrasiya Akademiyası ictimaiyyətə təqdim olundu, fəaliyyətə başladı.

***Avrasiya Akademiyasının rəsmi açılışı və "Avrasiya Əfsanəsi" kubokunun təqdim olunması mərasimi ölkə mediasında, həmçinin Türkiyənin TRT-1 və TRT avaz kanallarında geniş işıqlandırılmışdır.***















# EURASIAN ACADEMY OPENING AND EURASIAN LEGEND AWARD CEREMONY

**The history of Eurasian Academy:** *In 2012, a group of intellectuals, scholars and artists began discussing the formation of a new regional and international Academy. They decided on the Academy's founders; basic principles; the idea of awards to be given to elected members; medals to be given for outstanding contributions in science, technology and arts; the name of the Academy and other issues. The five founding members of the Academy are citizens of Azerbaijan, Turkey and the USA: Professor Halil Inalcik, Professor Lotfi Zadeh, Professor Mahmut Gazi Yasargil, Composer Arif Melikov, and Professor Hamlet Isaxanli. They decided that Eurasian Academy will be headquartered in Azerbaijan. On September 28, 2012, Eurasian Academy was registered by the Ministry of Justice of the Azerbaijan Republic. The Academy designed the "Eurasian Legend" which would be awarded to its members, as well as its 5 medals (named for Ibn Sina, Nasiraddin Tusi, Ibn Khaldun, M.F. Axundzadeh və U. Hajibeyli).*

*"Strive for truth, treasure beauty:" this is the motto of Eurasian Academy. Science strives to understand truth, and art strives to appreciate beauty. Eurasian Academy aims to pull the two together, to make contributions toward the development of both, and to recognize people making significant contributions to both spheres.*



On January 29, in the Marble Hall of Khazar University's Neftchilar Campus, the Eurasian Academy opening and Eurasian Legend award ceremony was held.



Participants included representatives from countries of Europe, Asia and America; selected scholars, academic and educational organizations; people of arts, literature and music; various government representatives and Members of Parliament; ambassadors; heads of corporations and members of the press. The ceremony was broadcast live on Khazar University's internet TV channel and its internet radio station.

Three of the founding members of the Academy, Professor Mahmut Gazi Yasargil, composer Arif Melikov and Professor Hamlet Isaxanli, participated. 100-year-old Professor Halil Inalcik and 95-year-old Professor Lutfi Zadeh were unable to participate because of their mobility limitations. Because they were unable to participate, the other founders of Eurasian Academy traveled to Bilkent University in Ankara and University of California, Berkeley before the ceremony to visit them and present Eurasian Legend awards and certificates to them.



The ceremony began with a film about the history of academies, Eurasian Academy and the concept of its establishment.

Then the three founding members participating in the event were presented with Eurasian Academy awards.









Prof. Isa Habibbeyli, Vice President of the Azerbaijan National Academy of Sciences and the honorable Alper Coşkun, Ambassador Extraordinary and Plenipotentiary of the Republic of Turkey to Azerbaijan, presented the award to Professor Mahmut Gazi Yasargil. Prof. Victor Tvircun, Chairman of the Section of Humanities and Arts of the Academy of Sciences of Moldova, and Dr. Orkun Hasekioglu, Vice President of TUBITAK, the Scientific and Technological Research Council of Turkey, presented the award to Professor Arif Melikov. Prof. Nodar Mitagvaria, member of the Georgian National Academy of Sciences, and Prof. Fahrettin Keleştimur, Head of Turkish Health Institutes and member of Turkish National Academy of Sciences, presented the award to Professor Hamlet Isaxanli.




A list of various academies of sciences from around the world who sent congratulatory letters to Eurasian Academy was read, including the following:

The British Academy (Professor Nicholas Stern (Lord Stern of Brentford), President) Royal Academy of Engineering, UK (Professor Dame Ann Dowling, President); The Royal Society of Edinburgh (Dame Jocelyn Bell Burnell, President); National Academy of Sciences (USA) (Prof. Ralph J. Cicerone, President); National Academy of Engineering, USA (Dr. Dan Mote, President); Russian Academy of Sciences (Prof. Vladimir Fortov, President); Accademia Nazionale dei Lincei, Italy (Prof. Alberto Quadrio Curzio, President); The Royal Swedish Academy of Sciences (Prof. Christina Moberg, President); The Swiss Academies of Art and Science (Dr. Maurice Campagna, President); Norwegian Academy of Science and Letters (Dr. Ole M Sejersted, President); The Royal Academies for Sciences and Arts of Belgium (Mr. Hubert Bocken, President); Académie des Sciences, Institut de France (Bernard Meunier, President) ; Acatech- National Academy of Science and Engineering, Germany (Prof. Dr. M. Klein, Secretary General); Max Planck Society, Germany (Professor Martin Stratmann, President); Leopoldina German National Academy of Sciences (Prof. Dr. Dr. h.c. mult. Jörg Hacker, President); Austrian Academy of Sciences (letter on behalf of President Zeilinger by Mr. Bernhard Plunger,Head of International Relations);








The Hungarian Academy of Sciences (Prof. László Lovász, F.M., President); Czech Academy of Sciences (Prof. Ing. Jiří Drahoš, DrSc., dr. h. c., President); Latvian Academy of Sciences (Prof. Dr. Ojars Sparitis, President); Estonian Academy of Sciences (Professor Tarmo Soomere, President); Indian Academy of Sciences (Prof. Ram Ramaswamy, President); Pakistan Academy of Sciences (Dr. Anwar Nasim, S.I., President); The Academy of Sciences of IR Iran (Prof. Reza Davari Ardakani, President); Islamic World Academy of Sciences (H E Dr Abdel Salam Majali, President of the IAS, and Moneef R. Zou'bi PhD, Director General); Organization of Islamic Cooperation Research Centre for Islamic History, Art and Culture (İRCİCA)- (Halit Eren, General Director); Chinese Academy of Engineering (Prof. Zhou Ji, President); The National Academy of Sciences, Republic of Korea (Prof. Sook-Il Kwun, President); The Japan Academy (Prof. Takashi Sugimura, President); The World Academy of Sciences (Prof. Romain Murenzi, Executive Director); World Academy of Art and Science (Prof. Heitor Gurgulino de Souza, President).

















**Only one congratulatory letter, which was from Dr. Maurice Campagna, President of the Swiss Academies of Arts and Sciences, was read during the ceremony:**

*Your Excellencies,*
*Ladies and Gentlemen,*
*Dear Colleagues,*

*It is an honour and my sincere pleasure to speak to you on the occasion of the inauguration of the Eurasian Academy. I regret that I cannot be among you personally at this important event. This because of my term as the new President of the Swiss Academies of Arts and Sciences started just at the beginning of 2016. At the same time, the Swiss Federal Council decided to launch a program to stabilize the federal budget for the next four years. This includes proposals for cuttings in the areas of education, research and innovation. This represents a major challenge for the Swiss Academies. It is encouraging and promising to witness the birth of such an institution today: It is the vision of five important personalities from different countries who persevered in making it happen. I personally wish them, and all of you, great success with your noble endeavour to assist the fields of education, research and innovation. Not for the first time in human history, enlightenment forms the base for serving human social development. Especially in a dramatically changing world, this future-oriented attitude is valid for all nations. The Eurasian Academy shall be no exception.*

*This ethos is also key for the work of the Swiss Academies of Arts and Sciences, which is the umbrella organisation of the country's four Academies that cover all disciplines. These reach from the natural sciences over the social sciences, to medicine, engineering and technology. The oldest one among them, the Swiss Academy of Natural Sciences, just celebrated its 200th anniversary last year. The Academy served as catalyst for the first topographic map of Switzerland. Subsequently, the construction of a railway network and streets made it at all possible to unite the country's geographically divided regions to a Swiss democratic, federal state. In contrast, the Swiss Academy of Engineering Sciences was established only in 1983. This as a reflection the undisputable importance and the overwhelming development of the sector. Since life quality and sustainable development of a country's society are directly linked to it, it cannot be highlighted enough.*



*Before the enlightenment period in Europe, monarchs, nobility and gentry established academies to counterweigh the role of the church as sole authority and expert body. Currently, we are observing a paradigm shift of the academies worldwide. The interdisciplinary approach has become popular and an enlightened dialogue among all of the actors of society is strongly promoted. In facing increasingly complex societal developments, the role of science undoubtedly is fundamental. Understanding our surroundings, participating in its development and ultimately improving our quality of life, is based on the cultural integration of science and technology in a society.*

*Academies are responsible for providing the rational skeleton to governmental and political decision makers, in charge of solving current and future challenges: from food distribution and supply to a reliable health care system, from pollution control to sustainable mobility and energy supply. On a voluntary basis, scientists from our country's higher education institutions and research provide their expertise to our Academies. The long-term availability of high-quality scientific knowledge in the service of society can only be ensured by promoting and coaching young talents. Finally, yet importantly, our mission reflects the importance of academic autonomy and freedom. The interference of the State in the scientific enterprise is a common danger that must be faced and avoided. This noble goal forms the cornerstone of most national constitutions around the globe, including Switzerland.*

*With these thoughts, I wish you all an enjoyable meeting in Baku and we look forward to seeing the Eurasian Academy to go from success to success.*

*Thank you!*



Then the floor was given to several guests for congratulatory remarks. Guests who spoke included Mr. Huseyn Baghirov, Minister of Ecology and Natural Resources; Prof. Victor Tsvirkun, Chairman of the Section of Humanities and Arts of the Academy of Sciences of Moldova; Dr. Orkun Hasekioglu, Vice President of TUBITAK, the Scientific and Technological Research Council of Turkey; Prof. Fahrettin Keleştimur, Head of Turkish Health Institutes and member of Turkish National Academy of Sciences; Prof. Nodar Mitagvaria, member of the Georgian National Academy of Sciences; and Prof. Isa Habibbeyli, Vice President of the Azerbaijan National Academy of Sciences.

Then it was announced that the founding members had selected the Academy's first member. The floor was given to Prof. Hamlet Isaxanli. He announced that Prof. Ali Javan, citizen of the USA, had been selected for membership and made a presentation about his academic activities. Prof. Javan was unable to participate because of health challenges, so Mr. Stephen Guice, Head of Public Affairs of the American Embassy to Azerbaijan, accepted the Eurasian Legend and its document on his behalf.

Khazar University presented a carpet with a portrait of Nizami which was made in the Khazar University Cultural Center by students and teachers as a gift to Eurasian Academy. The carpet was designed by textile artist Afag Kerimova, the director of the Cultural Center.

Then the founders thanked designer and textile artist Mrs. Afag Kermiova, the designer of the Eurasian Legend Award and Eurasia Medals, as well as Mrs. Nailakhanim Isayeva, Advisor to the Khazar University Board of Directors and Trustees, who designed the Eurasian Academy ceremonial dress.

Thus, a historic event took place along with the participation of distinguished people from Azerbaijan and various countries: Eurasia Academy started its activities and was presented to the public.

*The Eurasian Academy Opening and Eurasian Legend Award Ceremony was covered by national media as well as Turkey's TRT-1 and TRT Avaz channels.*








Xosrov və Şirin
Yeddi Gözəl
Kainatda
Cəzbə
Bağlıdır
Filosoflar
bunu
eşq
adlandırır
1141
Gəncə

# AVRASİYA AKADEMİYASININ MEDALLARI | EURASIAN ACADEMY MEDALS

Avrasiya Akademiyası aşağıdakı medalları təsis etmişdir:

**İbn Sina adına medal** fəlsəfə, təbiət elmləri, tibb sahələrində, **Nəsirəddin Tusi adına medal** dəqiq və tətbiqi elmlər, mədəniyyət sahələrində, **İbn Xəldun adına medal** tarix və humanitar elmləri sahələrində, **Mirzə Fətəli Axundzadə adına medal** ədəbiyyat, teatr, kino sahələrində, **Üzeyir Hacıbəyli adına medal** elm, incəsənət, musiqi, mədəniyyət sahələrində xüsusi müvəffəqiyyətlər qazanmış görkəmli şəxslərə Avrasiya Akademiyası Şurası tərəfindən verilir.

The following medals were founded by Eurasian Academy:

The **Ibn Sina Medal** is awarded to scholars, musicians, and artists selected by the Eurasian Academy board who have made significant achievements in the fields of philosophy, life sciences and medicine. The **Nasiraddin Tusi Medal** is for the fields of applied science or culture; the **Ibn Khaldun Medal** for history and social sciences; the **Mirza Fatali Akhundzade Medal** for the fields of literature, theater and film; and the **Uzeyir Hajibeyli Medal** for music, culture, fine arts and humanities.







EURASIAN ACADEMY









**AVRASİYA AKADEMİYASININ QURUCULARI**

**EURASIAN ACADEMY FOUNDERS**



# HALİL İNALCIK

# HALİL INALCİK



Osmanlı İmperiyası tarixinin əsas tədqiqatçılarından biridir. 1916-cı ildə İstanbulda anadan olub. 1940-cı ildə Ankara Universitetinin dil və tarix-coğrafiya fakültəsini bitirmiş, 1942-ci ildə PhD dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. 1943-cü ildə Vyanada "Böyük Ricat: Osmanlı imperatorluğu və Krım xanlığı" adlı tədqiqatı ilə dosent təyin edilmişdir. Osmanlı İmperiyasının sosial-iqtisadi tarixində araşdırma aparan İnalcık ixtisasını artırmaq üçün İngiltərəyə getmiş, Britaniya Muzeyində türkcə əlyazmalar üzərində çalışmışdır. 1952 - ci ildə "Vyana məğlubiyyəti illərində Osmanlı - Krım xanlığı birliyi" adlı tədqiqatı ilə professor adı almışdır. Uzun illər boyunca Amerikanın müxtəlif universitetlərində mühazirələr oxumuş, 1972 - 1992-ci illərdə Çikaqo Universitetində Osmanlı tarixindən dərs demişdir. 1993-cü ildə Türkiyəyə qayıtdıqdan sonra hal-hazırda çalışdığı Bilkent Universitetində tarix departamentini yaratmışdır. Osmanlı tarixinin tək sosial-iqtisadi deyil, həm də siyasi və mədəni tarixi üzrə sanballı monoqrafiyalar müəllifidir; professor İnalcıkın əsərlərini oxumadan heç kim Osmanlı tarixi ilə ciddi məşğul ola bilmir. İnalcık bir çox beynəlxalq qurumların üzvü, fəxri üzvü, idarə heyəti üzvü və sədri vəzifələrini daşımış, çoxsaylı mükafatlara layiq görülmüşdür.

Halil Inalcik is one of the leading historians of the Ottoman Empire. He was born in 1916 in Istanbul. In 1940 he graduated from Ankara University's School of Language and History-Geography, and in 1942 he defended his PhD dissertation. In 1943 in Vienna he became an Associate Professor with his research on the "Great Request: the Ottoman Empire and the Crimean Khanate." In order to continue his research on the social and economic history of the Ottoman Empire, Inalcik went to England and worked with Turkish manuscripts in the British Museum. In 1952, he received the title of professor with his research entitled "Ottoman-Crimean Khanate Unity during the years of Vienna's Defeat." He taught in various universities in America as a guest professor, and in 1972-1993, he taught Ottoman history classes at Chicago University. In 1993 he returned to Turkey and founded the history department at Bilkent University, where he still teaches. He has authored influential monographs not only on Ottoman social and economic issues but also on its political and cultural history. It is impossible to research Ottoman history without citing one of Professor Inalcik's works. Inalcik is a member, honorary member, executive board member and/or chairman of many international organizations, and he holds many awards.

# LÜTFİ ZADƏ



# LOTFİ ZADEH



Qısaca Lütfi Zadə adı ilə tanınmış Lütfəli Rəhim oğlu Əsgərzadə elektrik mühəndisliyi və süni intellekt sahəsində mütəxəssis, riyaziyyatçı, Kaliforniya Berkli Universitetinin əməkdar (emeritus) professorudur. Lütfi Zadə 1921-ci ildə Bakıda anadan olmuş, 1931-ci ildə ailəsi ilə İrana, əslən Ərdəbildən olan atasının vətəninə köçmüşdür. 1942-ci ildə Tehran Universitetini elektrik mühəndisliyi üzrə bitirmişdir. 1944-cü ildə Amerikaya köçmüşdür. 1946-cı ildə MIT-dən elektrik mühəndisliyi üzrə magistr dərəcəsi, 1949-cu ildə Kolumbiya Universitetindən PhD dərəcəsi almışdır. 1957-ci ildə Kolumbiya Universitetinin professoru olmuş, 1959-cu ildən başlayaraq Kaliforniyada, Berkli Universitetində çalışmağa başlamışdır, bu günə qədər Berklidə yaşamaqdadır. Qeyri-səlis çoxluq, qeyri-səlis məntiq, qeyri-səlis alqoritmlər kimi nəzəriyyələr qurmuş, diskret zaman siqnal analizində çox işlənən z-çevirmə nəzəriyyəsini quran iki mütəxəssisdən biridir. Bu nəzəriyyələr texnoloji və sosial proseslərdə öz tətbiqlərini tapmışlar. Lutfi Zadə Kaliforniya Berkli Universitetində "İnformasiya Texnologiyaları üzrə Zadə İnstitutu"nu təsis etmişdir. Bir çox nüfuzlu elm və texnologiya qurumlarının üzvüdür, çoxsaylı mükafatlara, medallara və fəxri adlara layiq görülmüşdür. Əsərlərinə ən çox istinad edilən alimlərdən sayılır.

Lutfeli Esgerzade, who is known as Lotfi Zadeh for short, is a well-known specialist in Electrical Engineering and artificial intelligence, mathematician, and Professor Emeritus at the University of California, Berkeley. Lotfi Zadeh was born in Baku in 1921. In 1931, he moved with his family to Iran, the land of his father, who was from Ardabil. In 1942 he graduated from the Electrical Engineering program at Tehran University, and moved to America in 1944. He completed his master's degree in Electrical Engineering at MIT in 1946, and finished a PhD at Columbia University in 1949. In 1957 he became a professor at Columbia University, and began working at the University of California, Berkeley in 1959. He still lives in Berkeley. He formulated theories such as fuzzy sets, fuzzy logic, and fuzzy algorithms.

He is one of two specialists who developed the z-transform method in discrete time signal processing and analysis. These theories are used widely in social processes and manufacturing. Lotfi Zadeh also founded the Zadeh Institute for Information Technologies at Berkeley. He is a member of many influential scientific and technological organizations and has won many awards, medals and honorary titles. He is considered one of the most highly-cited scholars.

# MAHMUT GAZİ YAŞARGİL





Tibb elmləri doktoru, neyrocərrah, professor Mahmut Gazi Yaşargil 1925-ci ildə Türkiyədə, Diyarbakırda anadan olmuş, ilk və orta təhsilini Ankarada almışdır. 1944-45-ci illərdə Almaniyanın Friedrich Schiller Universitetində (iki semestr), sonra İsveçrənin Basel Universitetində tibbi təhsil almış, 1950-ci ildə burada tibb doktoru dərəcəsini qazanmışdır. 1953-1993-cü illərdə müəyyən fasilələrlə İsveçrədə, əsasən Zurich Universitetində və universitet xəstəxanasında çalışmış, 1973-ci ildə professor və Neyrocərrahiyyə departamentinin müdiri olmuşdur. 1965-67-ci illərdə ABŞ-da Vermont Universitetində (Burlington) işləmişdir. 1994-cü ildən etibarən Amerikada, əsasən Arkansas Universitetinin tibb fakültəsində çalışmış, neyrocərrahiyyə üzrə araşdırmalar aparmış və dərs demişdir. 7500 cərrahiyyə əməliyyatı aparmış, 3000-dən çox peşəkar cərraha öz sənətinin sirlərini öyrətmişdir. Özü düzəltdiyi tibbi alətlərlə beyində əməliyyatlar aparmışdır. Çoxsaylı monoqrafiya və məqalələr müəllifidir. Çoxsaylı mükafatlara, medallara və fəxri adlara layiq görülmüşdür. 1999-cu ildə "Neurosurgery" dərgisi tərəfindən ənənəvi Neyrocərrahlar Konqresinin illik toplantısında "1950-1999-cu illər dövrünün neyrocərrahı" elan edilmişdir. Professor Mahmut Gazi Yaşargil 2014-cü ildə vətənə dönmüşdür. Hazırda İstanbulda, Yeddltepe Universitetinin Beyin cərrahiyyəsi şöbəsinə rəhbərlik edir.

# MAHMUT GAZI YAŞARGIL

Doctor of Medicine, neurosurgeon, Professor Mahmut Gazi Yasargil was born in Diyarbakir, Turkey in 1925. He completed primary and secondary education in Ankara. In 1944 and 1945, he studied for two semesters in medical school at the Friedrich von Schiller University in Germany. Then he studied in medical school at the University of Basle, Switzerland, and there he received his Doctor of Medicine degree in 1950. From 1953 to 1993, he spent most of his time in Switzerland, mainly working in the University Hospital of Zurich. In 1973, he became a Professor and Chair of the Department of Neurosurgery at the same university. For an interim in 1965-67, he also worked in the University of Vermont (Burlington), USA. In 1994 he moved to America and worked at the School of Medicine at University of Arkansas, teaching and doing research there. He has designed his own surgical tools, has performed over 7500 surgeries and has taught secrets of his art to over 3000 neurosurgeons. He has also authored many books and articles. He has received many awards, medals and honorary titles. In 1999, he was featured as neurosurgeon of the century (1950-1999) by the "Neurosurgery" journal in the annual meeting of Neurosurgeons' Congress. Professor Mahmut Gazi Yaşargil returned to the land of his birth in 2014. He is currently leading the Neurosurgery Department of Yeditepe University in Istanbul.

# ARİF MƏLİKOV



# ARİF MELİKOV



Bəstəkar Arif Məlikov 1933-cü ildə Bakıda anadan olmuşdur. 1958-ci ildə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakültəsini (Q. Qarayevin sinfini) bitirmiş, həmin ildən orada çalışmağa başlamışdır. Gənc yaşlarında ona böyük şöhrət gətirən "Məhəbbət əfsanəsi" baletini - öz şah əsərini yazmış, əsər 1971-ci ildə Leninqrad Dövlət Opera və Balet Teatrında uğurla tamaşaya qoyulmuşdur (Nazim Hikmətin librettosu üzrə, Y. Qriqoroviç-baletmeyster, S. Virsaladze-rəssam, Niyazi-dirijor olmaqla). "Məhəbbət əfsanəsi" baleti dünyanın bir çox opera-balet teatrlarının repertuarında yer tutur. Arif Məlikov çoxsaylı simfoniyaların və simfonik poemaların, baletlərin, operetta, kantata və kamera-instrumental əsərlərin müəllifidir, bədii film və tamaşalara musiqi yazmış, mahnılar və Nazim Hikmətin sözlərinə romanslar silsiləsi bəstələmişdir. 1986-cı ildə SSRİ xalq artisti adına layiq görülmüşdür. 1979-cu ildə professor olmuş, 1982-ci ildən bu günə qədər Azərbaycan Dövlət Konservatoriyasında (indiki Azərbaycan Musiqi Akademiyasında) bəstəkarlıq kafedrasının müdiridir. Azərbaycan dövlət mükafatı laureatıdır, dövlət ordenlərinə layiq görülmüşdür. Xəzər Universitetinin fəxri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının üzvüdür.

Composer Arif Melikov was born in Baku in 1933. In 1958 he graduated from the Azerbaijan State Conservatory (Gara Garayev's class) with a concentration in musical composition. He began to work at the Conservatory in the same year. As a young composer he composed the music for a ballet, his masterpiece "Mahabbat efsanesi" (Legend of Love), which would bring him fame and honor. This ballet, which was based on a play by Nazim Hikmet, was staged in 1961 in the Leningrad State Opera and Ballet Theater (Y.Grigorovich-choreographer; S. Viersaladze- artistic director; Niyazi- conductor). "Legend of Love" is part of the repertoire of ballet and opera theaters around the world.

Arif Melikov is the author of many symphonies, symphonic poems, ballets, an operetta, a cantata and chamber music pieces. He has also written soundtracks for films and stage productions, songs, and a series of lyric songs based on Hikmet's poetry. In 1986 he was awarded the title of People's Artist of the USSR. In 1979 he became a professor, and he has been Chair of the Department of Composition in the Azerbaijan State Conservatory (now Azerbaijan Music Academy) since 1982. He has won national awards, orders and titles. He is an honorary doctor of Khazar University and a member of Azerbaijan National Academy of Sciences.

# HAMLET İSAXANLI





Professor Hamlet İsaxanlı1948-ci ildə Gürcüstanda anadan olub. 1965-ci ildə orta məktəbi qızıl medalla bitirmiş, 1969-cu ildə Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə başa vurmuşdur. 1970-73-cü illərdə Lomonosov adına Moskva Dövlət Universitetində namizədlik (PhD), 1983-cü ildə SSRİ Elmlər Akademiyasının Steklov institutunda (Moskva) doktorluq dissertasiyası müdafiə etmişdir. Funksional analiz və Riyazi fizika üzrə mütəxəssisdir, operatorların spektral nəzəriyyəsi və onun tətbiqləri üzrə çalışmış, çoxparametrli spektral nəzəriyyənin yaradıcılarından biri sayılır. Azərbaycan və onun hüdudlarından kənarda şair, ictimai xadim və tərcüməçi kimi də tanınır. Riyaziyyat, humanitar və sosial elmlər üzrə müxtəlif dillərdə və ölkələrdə nəşr olunmuş çoxsaylı kitab və məqalələr müəllifidir. Avropa, Amerika, Asiyada intensiv elmi-pedaqoji və təşkilati fəaliyyət göstərmiş və bunu davam etdirməkdədir. 1990-1991-ci illərdə müstəqil Azərbaycanın ilk özəl ali məktəbini -Xəzər Universitetini yaratmağa başlamış, onu dünyada tanınmış elm, təhsil və mədəniyyət ocağına çevirmişdir. Daha sonra "Dünya" məktəbini qurmuşdur. Hazırda Xəzər Universiteti Direktorlar və Qəyyumlar Şurasının sədridir. Bir çox beynəlxalq elmi, mədəni, humanitar təşkilatların idarə heyəti üzvü və ya sədri olmuş, fəxri ad, medal və mükafatlara layiq görülmüşdür.

# HAMLET ISAXANLI

Professor Hamlet Isaxanli was born in the Republic of Georgia in 1948. He finished high school there with a gold medal in 1965, and he earned a bachelor's degree with honors from Azerbaijan State University's School of Mechanics and Mathematics. He completed his PhD dissertation at Lomonosov Moscow State University in 1973, and in 1983, he earned a Doctor of Science (D.S.) degree at the V.I. Steklov Institute of Mathematics, Soviet Academy of Sciences (Moscow). He is a specialist in functional analysis and mathematical physics; he has worked on spectral theory of operators and its applications; and he is considered one of the founders of multiparameter spectral theory. He is also recognized in Azerbaijan and abroad as a public figure, poet, and translator. He has written many books and articles in mathematics, humanities and social sciences that have been translated into various languages and published in different countries. He has been and continues to be involved in intensive research, teaching, and organizational work in Europe, America and Asia. In 1990-1991, he founded the first private higher education institution in Azerbaijan, Khazar University, which has turned into a center of sciences, education and culture known throughout the world. Then he founded the Dunya School. He is currently Chairman of the Board of Directors and Trustees of Khazar University. He serves as a chairman or board member of many national and international scholarly, cultural and humanitarian organizations. He has earned various honorary titles, medals and awards.



## TACİKİSTAN SƏFİRLİYİNDƏ GÖRÜŞ

Fevralın 3-də Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs və Beynəlxalq əlaqələr şöbəsinin nümayəndələri – şöbənin direktoru Turan Cəfərova, direktor assistenti Günay Fərzəliyeva Tacikistan Respublikasının Azərbaycandakı səfirliyində oldular. Görüş Beynəlxalq əlaqələr şöbəsi tərəfindən təşkil olunmuşdu.

Xəzər Universitetinin nümayəndələri Tacikistanın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Zohir Saidov və onun birinci katibi Salimi Xatloni ilə görüşdülər.

H. Niknafs Xəzər Universitetinin fakültə və proqramları, Azərbaycan daxilində və xaricdəki universitetlər arasında reytinqi və həmçinin də, beynəlxalq əlaqələrin gücləndirilməsi siyasəti haqqında məlumat verdi. O vurğuladı ki, universitetimiz Tacikistandan tələbələr cəlb etməyə və bu ölkənin universitetləri ilə əməkdaşlığı gücləndirməyə maraqlıdır.

T. Cəfərova növbəti tədris ili üçün açıq olan beynəlxalq qəbul proqramı, əcnəbi tələbələrə təklif olunan proqramlar, Tacikistan və digər ölkələrdən olan tələbələrə açıq olan təqaüd imkanlarından danışdı. Xəzər Universitetinin təbliğat materialları səfirliyin nümayəndələrinə təqdim edildi.

Səfir Zohir Saidov bildirdi ki, Xəzər Universitetinin tacik tələbələrinə yaratdığı imkanlar onlar üçün maraqlıdır. Qeyd etdi ki, Xəzər Universitetini Azərbaycandakı ən aparıcı universitetlərdən biri kimi tanıyır və onun proqramlarının Tacikistanda gənclər arasında təbliğ olunmasına və tacik universitetləri ilə əlaqələrin qurulmasına səy göstəriləcək.

Qeyd olundu ki, beynəlxalq qəbul və Xəzər Universiteti Beynəlxalq Təqaüd Proqramı bütün xarici vətəndaşlar üçün açıqdır. Potensial tələbələr (bakalavr, magistr və doktarantura tələbələri) universitetin dörd fakültəsinə müraciət edə bilərlər. Müraciət üçün son tarix 2016-cı il aprelin 15-dir.

## MEETING AT THE EMBASSY OF TAJIKISTAN

On February 3, Dr. Hassan Niknafs, President of Khazar University, and the International Affairs Office staff (Turan Jafarova, Director of International Affairs Office; Gunay Farzaliyeva, Director's Assistant) visited the Embassy of the Republic of Tajikistan. The meeting was organized by the International Affairs Office.

Representatives of Khazar University met with his Excellency, Ambassador Plenipotentiary and Extraordinary, Mr. Zohir Saidov, and the first secretary Mr. Salimi Khatloni.

Dr. Hassan Niknafs provided information about Khazar University, its schools and programs, ranking among other universities in and outside of Azerbaijan as well as about the internationalization strategy of the university. He emphasized that the university was interested in attracting students from Tajikistan and in strengthening cooperation with universities in Tajikistan. Ms. Turan Jafarova made a presentation about the current admission cycle for the upcoming academic year, programs offered to international students, and scholarship opportunities open to citizens of Tajikistan as well as to nationals from all countries. Promotional package of Khazar University were presented to the Embassy representatives.

His Excellency Mr. Zohir Saidov expressed interest in the opportunities provided by Khazar University to nationals of Tajikistan. The Ambassador stressed that he knows Khazar University as one of the leading universities in Azerbaijan and would support its activities in promoting the programs open to citizens of Tajikistan and building connections with universities in Tajikistan.

Admission and the Khazar University International Scholarship Program are now open to nationals of all countries for potential students, both graduate (Master and PhD) and undergraduate (Bachelor), at all four schools of the university. The deadline for applications is April 15, 2016.





# "ELM VƏ SƏNƏT MƏCLİSİ"NİN 65-Cİ MƏŞĞƏLƏSİ KEÇİRİLDİ



Yanvarın 30-da Xəzər Universitetində ənənəvi "Elm və Sənət Məclisi"nin 65-ci məşğələsi keçirildi. Məşğələni giriş sözü ilə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, profesor Hamlet İsaxanlı açaraq qonaqları – TUBİTAK-ın Başqan yardımçısı Orkun Hasekioğlunu, TUSEB-in başqanı, professor Fahrettin Keleştimuru, Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru Elçin Babayevi və digər məşğələ iştirakçılarını salamladı.

Məşğələnin aparıcısı H. İsaxanlı dünya şöhrətli neyrocərrah alim, Yeditepe Universitetinin professoru Mahmut Gazi Yaşargili məşğələ iştirakçılarına təqdim etdi və onun həyat və yaradıcılığı haqqında geniş məlumatdan sonra sözü məruzəçiyə verdi. M.G.Yaşargil "Mərkəzi sinir sisteminin quruluşu" mövzusunda geniş məruzə ilə çıxış etdi. Məruzə ətrafında müzakirə keçirildi. Müzakirələrdə Hafiz Osmanov (Azərbaycan Tibb Universiteti), Xaqani İsmayıl (Azərbaycan Yazarlar Birliyi), Çingiz Əlizadə (Travmatologiya və Ortopediya Elmi-Tədqiqat İnstitutu), Kabus Dadaşov (Respublika Neyrocərrahiyyə Xəstəxanasının baş həkimi), Firuz İbrahimov (Xəzər Universiteti) və digərləri çıxış etdilər.

Sonda xatirə şəkilləri çəkildi.



# 65 TH ASSEMBLY OF SCIENCE AND ART



On January 30, the 65th meeting of Khazar University's Assembly of Science and Art was held. Professor Hamlet Isaxanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, made an opening speech and welcomed the guests, including Orkun Hasekioğlu, Vice President of TUBITAK (the Scientific and Technological Research Council of Turkey), Professor Fahrettin Keleştimur, Head of TUSEB (Turkish Health Institutes), and Elchin Babayev, Executive Director of the Scientific Development Foundation of the President of the Azerbaijan Republic.

Then Hamlet Isaxanli gave background information about the guest speaker of the event, Mahmut Gazi Yaşargil, world-famous neurosurgeon and professor at Yeditepe University. Professor Yaşargil gave a lecture about the structures of the central nervous system.

After the lecture, a discussion was held. Active participants included Hafiz Osmanov (Azerbaijan Medical University), Khagani Ismayil (Azerbaijan Writers' Union), Chingiz Alizada (Research Institute for Traumatology and Orthopedics), Kabus Dadashov (Head Doctor at the Republic Neurosurgery Hospital), and Firuz Ibrahimov (Khazar University).





## HİNDİSTANIN SƏFİRİ XƏZƏR UNİVERSİTETİNDƏ

Fevralın 4-də Hindistanın səfiri Sanjay Rana Xəzər Universitetində qonaq oldu və rektor Dr. Hassan Niknafs, Beynəlxalq əlaqələr şöbəsinin direktoru Turan Cəfərova və direktor assistenti Günay Fərzəliyeva ilə görüşdü. Görüş Beynəlxalq əlaqələr şöbəsi tərəfindən təşkil olunmuşdu və universitetin "Neftçilər" kampusunda keçirildi.

H.Niknafs Hindistan səfirliyi və Hindistandakı universitetlərlə yaxın əməkdaşlıq qurmaqla bağlı dərin marağını bildirdi. Görüş zamanı yaxın gələcək üçün qarşıya qoyulan məqsədlərdən biri də Hindistanda universitetləri müəyyən etmək və Xəzər Universiteti ilə onlar arasında tələbə və professor-müəllim heyətinin mübadiləsini nəzərdə tutan qarşılıqlı faydalı əməkdaşlıqlar yaratmaq, birgə layihələr həyata keçirmək, elm, incəsənət və digər sahələrdə birgə tədbirlər təşkil etmək oldu. H. Niknafs hindistanlı tələbələri Xəzər Universitetinin beynəlxalq tələbələr üçün təklif olunan proqramlarında görməkdən məmnun olacağını bildirdi. Hindistanın səfiri xarici səfirlərin mühazirələri silsiləsində öz seçimi olan mövzuda mühazirə oxumaq üçün də universitetə dəvət olundu.

Beynəlxalq Əlaqələr Şöbəsinin direktor assistenti Günay Fərzəliyeva 2016-2017-ci tədris ili üçün açıq olan beynəlxalq qəbul haqqında məlumat verdi və Xəzər Universitetinin təbliğat materiallarını səfirə təqdim etdi.

## AMBASSADOR OF INDIA VISITS KHAZAR UNIVERSITY

On February 4, Ambassador of India Mr. Sanjay Rana visited Khazar University and met with Dr. Hassan Niknafs, President; Turan Jafarova, Director of the International Affairs Office; and Gunay Farzaliyeva, Director's Assistant. The meeting was organized by the International Affairs Office and took place in the Neftchilar campus of the University.

Dr. Hassan Niknafs expressed a strong interest in close collaboration with the Embassy of India and universities in India. One of the main goals for the near future set during the meeting was identifying universities in India and developing mutually beneficial partnerships between them and Khazar University concerning exchange of students and faculty, implementing joint projects, carrying out joint events and activities in science, art, and other relevant fields. Dr. Niknafs also stressed that Khazar University was very interested in accepting students from India to programs offered by Khazar University to international degree-seeking students. The Ambassador of India was also invited to deliver a lecture on the topic of his choice in frame of the lecture series by foreign ambassadors.

Ms. Gunay Farzaliyeva, Assistant of the Director of the International Affairs Office, provided information about admission for the 2016-2017 academic year and presented promotional materials of Khazar University to the Ambassador.



## ƏFQANISTANIN SƏFİRİ XƏZƏR UNİVERSİTETİNDƏ

Fevralın 5-də Beynəlxalq Əlaqələr Şöbəsinin təşkil etdiyi görüş çərçivəsində Əfqanıstanın Azərbaycandakı səfiri cənab Mohammad Taqi Xalili və səfirliyin ikinci katibi Mohammad Amin Yaqoubi Xəzər Universitetinin "Neftçilər" kampusunda qonaq oldular. Görüşdə Xəzər Universitetindən rektor Dr. Hassan Niknafs, Beynəlxalq Əlaqələr Şöbəsinin direktoru Turan Cəfərova və direktor assistenti Günay Fərzəliyeva iştirak edirdilər.

Görüş zamanı mümkün əməkdaşlıqlar və Əfqanıstandan olan tələbələr üçün Xəzər Universitetinin təklif etdiyi imkanlar müzakirə olundu. Hazırda biznesin idarə olunması ixtisasında magistr təhsili alan əfqanıstanlı tələbə Dastgir Ghulam Ahmadi də görüşdə iştirak etdi və Xəzər Universitetindəki təcrübəsindən danışdı. Dastgir Ahmadi 2015-2016-cı tədris ilində Xəzər Universitetinin təqaüd ayırdığı tələbələrdən biridir.

Qeyd olundu ki, beynəlxalq qəbul və Xəzər Universiteti Beynəlxalq Təqaüd Proqramı bütün xarici vətəndaşlar üçün açıqdır. Potensial tələbələr (bakalavr, magistr və doktarantura tələbələri) universitetin dörd fakültəsinə müraciət edə bilərlər. Müraciət üçün son tarix 2016-cı aprelin 15-dir.

## AMBASSADOR OF AFGHANISTAN AT KHAZAR UNIVERSITY

On February 5, Ambassador of Afghanistan Mohammad Taqi Khalili visited Khazar University with his second secretary, Mohammad Amin Yaqoubi. The meeting was organized by the International Affairs Office and took place on the Neftchilar campus of the University. Participants from Khazar University included Dr. Hassan Niknafs, President; Turan Jafarova, Director of the International Affairs Office; and Gunay Farzaliyeva, Director's Assistant.

Cooperation possibilities and opportunities offered by Khazar University for students in Afghanistan were discussed during the meeting. A student from Afghanistan, Mr. Dastgir Ghulam Ahmadi, who is currently pursuing his master degree in Business Administration, also participated in the meeting and spoke about his experience at Khazar University. Mr. Ahmadi was one of the students who was awarded the scholarship by Khazar University in 2015.

Admission and the Khazar University International Scholarship Program are now open to nationals of all countries for potential students, both graduate (Master and PhD) and undergraduate (Bachelor), at all four schools of the university. The deadline for applications is April 15, 2016.

"XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU

*"Xəzər Xəbər"in AMEA Nizami adına Ədəbiyyat İnstitutunda bürosu fəaliyyətə başlamışdır. İlk xəbərləri təqdim edirik.*

# GƏNC ƏDƏBİYYATŞÜNASLARA "İLİN ALİMİ" MÜKAFATI TƏQDİM OLUNDU

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nizami adına Ədəbiyyat İnstitutunun Elektron akt zalında 2 fevral – Azərbaycan Gəncləri Günü münasibətilə tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli ölkədə gənclərə dövlət qayğısından danışıb. Azərbaycanda gənclər siyasətinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu xüsusi vurğulayan akademik İsa Həbibbəyli bu siyasətin müstəqil Azərbaycan dövlətinin fəaliyyətinin ən mühüm istiqamətlərindən biri kimi dəyərləndirib. Ulu öndərin gənclərə böyük qayğısını real faktlarla xatırladan akademik İsa Həbibbəyli bu gün də Azərbaycan rəhbərliyi tərəfindən gənclərin problemlərinə xüsusi diqqət yetirildiyini bildirib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə göstərilən bütün qayğı və diqqətin gənclərin ölkəmizin elmi, ictimai-siyasi həyatında daha fəal iştirakına şərait yaratdığını vurğulayan akademik İsa Həbibbəyli qarşıda duran vəzifələr istiqamətində Akademiyada çalışan gənc mütəxəssislərin uğurlu nəticələr əldə etdiyini diqqətə çəkib. Akademiyanın yeni inkişaf mərhələsində gənclərin üzərinə düşən vəzifələrdən danışan akademik İsa Həbibbəyli bu gün elmi-tədqiqat müəssisələrində gənc alimlərin fəal surətdə elmi axtarışlara qoşulduğunu, akademiyanın ictimai-siyasi həyatında gənclərin rolunun yüksəldiyini qeyd edib. İnstitut rəhbəri akademiyanın müasir inkişaf mərhələsində Ədəbiyyat İnstitutunun gənc əməkdaşlarının da rolunun artdığını diqqətə çatdıraraq, elmi-tədqiqat müəssisəsində gənc alimlərin böyük fəallıqla elmi axtarışlara daha həvəslə can atdıqlarını xüsusi vurğulayıb.

Sonra institutun Gənc Alimlər Şurasının sədri, filologiya üzrə fəlsəfə doktoru, dosent Eşqanə Babayeva "Ədəbiyyat İnstitutu əməkdaşlarının elmi axtarışları və nəticələr" mövzusunda məruzə ilə çıxış edib. Məruzədə elmi-tədqiqat müəssisəsində çalışan gənc elmi işçilərin əldə etdiyi nəticələr və uğurlar barədə ətraflı məlumat verilib.

Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli "İlin gənc alimi" nominasiyası üzrə mükafatların qaliblərinin adlarını açıqlayıb və ədəbiyyatşünaslıq elmi sahəsində 2015-ci ildə səmərəli fəaliyyətlərinə görə filologiya üzrə fəlsəfə doktorları Eşqanə Babayeva, Maral Yaqubova, Turan Teymurov və institutun doktorantı Mehman Həsənova "İlin gənc alimi" mükafatlarını təqdim edib.

Tədbirdə AMEA Gənc Alimlər Şurasının sədri, fizika-riyaziyyat üsrə fəlsəfə doktoru Famin Salmanov, filologiya elmləri doktoru, professor Tehran Mustafayev, filologiya elmləri doktoru, professor Tahirə Məmməd, Fizika İnstitutunun Gənc Alim və Mütəxəssislər Şurasının sədri Suma Hüseynova gəncləri təbrik edərək, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.



## CEYHUN HACIBƏYLİNİN 125 İLLİK YUBİLEYİ QEYD OLUNUB



Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Ədəbiyyat İnstitutunun Elektron akt zalında Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrindən biri, yazıçı-publisist, tərcüməçi, naşir və ictimai xadim Ceyhun Hacıbəylinin anadan olmasının 125 illiyinə həsr edilən elmi sessiya keçirilib.

AMEA Rəyasət Heyəti və Ədəbiyyat İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən tədbiri giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti, institutun direktoru, akademik İsa Həbibbəyli milli ədəbi-ictimai fikir tarixinə töhfələr vermiş C. Hacıbəylinin həyat və fəaliyyətindən, mədəniyyətimizin inkişafı və təbliğı sahəsindəki mühüm xidmətlərindən söz açıb.

Tədbirin Prezident İlham Əliyevin "Ceyhun Hacıbəylinin 125 illik yubileyinin keçirilməsi haqqında" 2015-ci il 19 noyabr tarixli Sərəncamına əsasən təşkil olunduğunu söyləyən akademik İsa Həbibbəyli qeyd edib ki, C. Hacıbəyli Azərbaycan xalqının zəngin mədəni nailiyyətlərinin dünyaya tanıdılması istiqamətində səmərəli fəaliyyət göstərmişdir.

Bildirilib ki, adı Azərbaycanın azadlıq tarixinə qızıl hərflərlə yazılmış C. Hacıbəyli mühacirətdə yaşadığı bütün dövrdə əqidə və amalından dönməmiş, son nəfəsinədək sovet imperiyası ilə ideoloji mübarizə aparmış, Azərbaycanın müstəqilliyi uğrunda çalışmışdır.

İ. Həbibbəyli C. Hacıbəylinin irsinin toplanılmasının, sistemli, ardıcıl şəkildə araşdırılmasının və nəşr edilməsinin vacibliyini vurğulayıb. Qeyd edilib ki, C. Hacıbəylinin irsi ölkəmizdə tədqiq olunur. İnstitutun Azərbaycan mühacirət ədəbiyyatı şöbəsi tərəfindən görkəmli ədibin əsərlərindən ibarət kitab çapa hazırlanıb.

Tədbirdə "Ceyhun Hacıbəylinin bədii yaradıcılığı", "Ceyhun Hacıbəyli və Qarabağ folkloru", "Ceyhun Hacıbəylinin siyasi fəaliyyəti" və digər mövzularda məruzələr dinlənilib.







# "Xəzər"də yubileylər

Fevralın 3-də universitetin akt zalında
"Xəzər Xəbər" jurnalının rəssamı
***Mir Rafiq Əbdülrəhimovun -70***
Tarix və arxeologiya departamentinin müəllimi, Xəzər Universiteti Avrasiya və Orta Şərq Araşdırmaları Mərkəzinin müdiri, fəlsəfə doktoru
***Fərda Əsədovun -60***
Neft mühəndisliyi departamentinin müdiri dosent
***Qaşəm Zeynalovun -50***
illik yubileyləri münasibətilə mərasim keçirildi. Tədbirin aparıcısı, Məzunlarla iş mərkəzinin müdiri Baba Bayramlı yubilyarların həyat və fəaliyyətləri haqqında qısa məlumat verdi. Universitetin Multimedia mərkəzinin hər bir yubilyar haqqında ayrıca hazırladığı slayd-şoular nümayiş etdirildi.rektor Hassan Niknafs və prorektor Məhəmməd Nuriyev yubilyarlara universitet adından təbrik məktublarını və gül dəstələri təqdim etdilər, fəaliyyətləri barədə danışdılar, gələcək işlərində onlara uğurlar arzuladılar.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, Multimedia mərkəzinin direktoru Natella Barkaya, İngilis dili və ədəbiyyatı departamentinin baş müəllimi Firəngiz Nəsirova çıxış edərək, yubilyarlar haqqında ürək sözlərini söylədilər. N. Barkaya slayd-şouları DVD-də onlara hədiyyə etdi.

Sonda M. R. Əbdülrəhimov, F. Əsədov və Q. Zeynalov mərasimin təşkilinə görə universitet rəhbərliyinə və iştirakçılara minnətdarlıqlarını bildirdilər.

Mərasim Musiqi və incəsənət departamentinin hazırladığı konsert proqramı ilə müşayiət olundu.



## XƏZƏR UNİVERSİTETİNDƏ BEYNƏLXALQ JURNALLARDA DƏRC OLUNAN ELMİ MƏQALƏLƏRƏ GÖRƏ PROFESSOR-MÜƏLLİM HEYƏTİNİN STİMULLAŞDIRILMASI HAQQINDA ƏSASNAMƏ TƏSDİQ EDİLMİŞDİR

Əsasnamə professor - müəllim heyətinin elmi fəaliyyətini stimullaşdırmaq, onların beynəlxalq elmi mühitə daha sıx inteqrasiyasını təmin etmək, elmi fəaliyyətin keyfiyyət göstəricilərini yüksəltmək və beynəlxalq jurnallarda çap olunan məqalələrin sayını artırmaq məqsədilə hazırlanmışdır.

Bu əsasnamə beynəlxalq aləmdə tanınmış jurnallarda dərc olunan hər bir məqaləyə görə müəlliflərə birdəfəlik mükafatların (qonorar) verilməsi üzrə qayda və prosedurları müəyyən edir.

## "XƏZƏR"İN DOKTORANTININ MƏQALƏSİ UKRAYNA JURNALINDA

Xəzər Universitetinin doktorantı Firuzə İbrahimovanın *"Держава та регіони"* ("Dövlət və Reqionlar") jurnalının "Humanitar elmlər" seriyasının 2-ci buraxılışında (No.2; 2015) *"Развитие моделей коммуникативной компетенции"* ("Kommunikativ səriştə modellərinin inkişafı") adlı məqaləsi çap olunmuşdur.

Məqalə kommunikativ səriştə konseptindən və onun modellərinin keçdiyi tarixi inkişaf yolundan bəhs edir. Müəllif, eyni zamanda, kommunikativ səriştə modellərinin sosiolinqvistika ilə əlaqəsinə də toxunmuşdur.




## MÜƏLLİMİMİZİN MƏQALƏSİ KOREYANIN TƏHSİL VƏ XƏBƏR SAYTINDA

Yanvarın 18-də Koreyanın ***wowstar*** - təhsilə dair xəbərlər saytında Xəzər Universitetinin Dillər və mədəniyyətlər departamentində Koreya dili fənnini tədris edən Könül Kamilzadənin məqaləsi çap olunmuşdur.

Məqalədə oxuculara Xəzər Universiteti haqqında geniş məlumat verilmiş, burada yaradılan Koreya Mərkəzinin uğurlu fəaliyyətindən bəhs edilmişdir.

Məqalədə, həmçinin, Koreya dili fənnini seçən Mühəndislik və tətbiqi elmlər fakültəsinin tələbələrinin bu ölkə haqqında təqdimatlarının fotoşəkilləri və həmin fakültənin 2-ci il tələbəsi Tərlan Məmmədlinin müsahibəsi verilmişdir.

Məqaləni bu linkdən oxumaq olar:

*http://wowstar.wowtv.co.kr/view.php?ud=20160118085730585328501_7.*

## KHAZAR INSTRUCTOR PUBLISHES ARTICLE IN KOREAN EDUCATION AND NEWS SITE

An article by Konul Kamilzade, Korean language instructor of the Khazar University Department of Languages and Civilizations, was published on the **wowstar** website for education-related news in Korea.

The article provides detailed information about Khazar University and the activities of its Korean Center. The article also includes an interview with Terlan Mammadli, second-year student, as well as photographs of class presentations by students of the School of Engineering and Applied Sciences.

The article is available (in Korean) at the following link:

*http://wowstar.wowtv.co.kr/view.php?ud=20160118085730585328501_7.*

ZAMAN



# TARİHİ HAFİZA VE İNSANLIK ALEYHİNE SUÇLAR

*Prof. Dr. Hamlet İsahanli,*
*Hazar Üniversitesi'nin Kurucusu ve Mütevelli Heyeti Başkani*

*22 Şubat 2012, Çarşamba*

*Xocalı faciesi haqqındakı bu yazı bir neçe il evvel yazılsa da, aktuallığını saxladığına görə onu oxucularımıza teqdim edirik.*



Tek taraflı bakış, etnik ve dinî önyargılar tarihin tahrif edilmesine, siyasete alet edilmesine, tarihî mitlerin oluşmasına neden olmak suretiyle, başkalarının aşağılanmasına, başkalarına karşı sorumsuzluğa, milletler, dinler ve ülkeler arasında gerginliğin artmasına, nefrete, bazen savaşlara bile yol açabilir.

Tarih, toplumsal etki gücüne sahiptir. Tarihi, insan evladı yaratıyor ve yazıyor, sonra kendi mitlerinin etkisi altında kalıyor. Tarihî geleneğin yarattığı milli, etnik veya dinî ideolojiyi kontrol etmek çok zordur.

Her millet tarihte en geniş bölgeyi kontrol altında tuttuğu döneme dayanarak toprak iddialarında bulunuyor. Ermeni-Türk, Ermeni-Azerbaycan ilişkilerini düşmanlığa dönüştüren de onların tarihî hafızaları ve bu çerçevedeki toprak iddialarıdır. Milletler arasında çatışma rekabetten başlıyor. Biri diğerinin malına, toprağına, kültürüne, yönetimine göz dikiyor ve onu kıskanıyor. Her iki taraf kendisini haklı, karşı tarafı haksız, tehlikeli ve saldırgan olarak görüyor. Korku, hırs ve propaganda rakibi düşmana dönüştürüyor, düşmansa sadece olumsuz yanlara sahiptir. Düşman amansız ve barışmazdır, vahşidir. Düşmana nefret! Ona her türlü darbe manevî haktır. Artık fertler değil, halkın tamamı düşman oluyor. Düşmana fikren saldırı başlıyor. Bu, gerçek savaşa hazır olma anlamına geliyor. Düşmanla açık ve gizli savaşlarda bilgi savaşını kazanmak için her yola başvuruluyor, radyo, televizyon, filmler, gazete ve dergi, internet kullanılıyor.

Azerbaycan topraklarını işgal eden Ermenistan ve Dağlık Karabağ bölgesi Ermenileri, her şeyin günahını Azerbaycan'da görüyor: "Azerbaycanlılar Türklerdir, onlar bu topraklara göç etmiş ve Ermeni topraklarını işgal etmişler, onların sayıları artacak, Ermenileri asimile edecekler, Dağlık Karabağ giderek Azerbaycanlaşacak. Azerbaycan düşman ülkedir. Düşmana düşman gibi muamele etmek gerekir. Biz neden ve ne kadar kendimizi savunmalıyız? Onların saldırısına son vermek gerekir. Saldırıda bulunmak gerekir. Onların topraklarını almalıyız. Aslında biz işgal etmiyoruz. Tarih şimdi onlara ait olan toprakların çoğunun bize ait olduğunu söylüyor. Biz, sadece, daha önce bizim olan toprakları geri alıyoruz. Diaspora da bizimledir. Yani Amerika ve Fransa bizden yana, Rusya'nın da bize ihtiyacı var. Bu nedenle sürekli olarak ilerlemeliyiz!"

## KİN VE NEFRETLE ANCAK AYRIŞMA OLUR

'Nefret, insanları birleştirebilir' görüşü bir paradokstur. Bu, toplumun hastalığa yakalandığını gösteriyor. Genellikle, insanları sevgi birleştirir, nefret

ise ayırır. Komşuların, rakiplerin düşmana dönüştüğü bir ortamda nefret grup içi dayanışmayı sağlar. Fakat nefret aynı zamanda iki (veya daha fazla) halk arasında duvar da örüyor.

Rasyonalizm ve pozitivizm "ilim ve bilim arttıkça insanlığın önündeki engeller ortadan kalkacak ve sorunlar çözülecek" diyordu. Victor Hugo, Lev Tolstoy gibi yazarlar 20. yüzyılın mutluluk yüzyılı olacağını tahmin ediyordu. Darwin ve Marx her gelen neslin ve toplumun eskisinden daha mükemmel olacağını iddia ediyorlardı. Fakat "adaletsizlik ortadan kalkmıyor, insan doğasında gelişme yoktur" fikri de kendisine taraftar kazandırmıştı. Nietzsche, Freud, Spengler ve diğer filozof ve psikologların görüşleri irrasyonalitenin gücünden, artan gerginlikten haber veriyordu. 20. yüzyılda iki dünya savaşı, katliam ve soykırımlar yaşandı. Tarihte çok sayıda toplu katliamlar yaşandı. Avrupalılar topraklara ve doğal kaynaklara sahip olmak için Amerika kıtasının milyonlarca (belki de on milyonlarca) yerlilerini katlettiler.

Birinci Dünya Savaşı'nda Balkanlar'da, Anadolu'da, Kafkasya'da, İran ve Ortadoğu'da siviller, Osmanlı Türkleri, Ermeniler, Rumlar, Kürtler, Azerbaycanlılar ve diğerleri toplu katliama maruz kaldılar. Balkanlar, Anadolu ve Kafkasya'daki katliamların gerçek suçluları, Osmanlı'yı parçalamak isteyen ve Osmanlı vatandaşlarını, özellikle Ermenileri silahlı isyana, saldırılara tahrik eden Rusya, İngiltere ve Fransa'ydı. Rus tarihçisi Tarle şöyle yazıyordu: "Jön Türkler, Yunan ve Ermenilerin (ayrıca Bulgar ve Sırpların) Osmanlı'yı parçalamak, onun topraklarından koparak Yunanistan'a, Bulgaristan'a, Sırbistan'a ve gelecek 'Büyük Ermenistan'a birleşmek istediklerini zannediyorlardı ve bu fikirde yanılmıyorlardı." (Tarle'nin eserleri, 5. cilt). Kuşkusuz, Osmanlı yönetiminin olayların kontrolünü kaybetmesi de önemli bir etkendi.

Holokost, Yahudilerin (ve birçok diğer millet ve toplulukların) yok edilmesine ve bu yolla "Yahudi sorununun kökten çözümü"ne yönelik sistemli bir devlet politikasıydı. Bu politika, diğer toplu katliam ve soykırımlar gibi toprak veya kaynaklara sahip olmak amacı taşımıyordu. Bu, bir ideolojiydi. Yahudiler, Almanlara karşı savaşmamış ya da isyan etmemişlerdi. Ama anti-semitizm güçlüydü, Almanlar "dünyayı yönetme planını gerçekleştirmek isteyen uluslararası Yahudi fikri"nin varlığına inanmışlardı. Adolf Hitler'in Grobe Luge (Büyük Yalan) propaganda tekniğine göre iyi bir büyük yalan uydurmak ve onu iyi süslemek gerekirdi. Düşman karakteri oluştur ve farklı görüşe yaşam şansı tanıma. Sıkça, çok fazla tekrarlarsan insanlar inanacak, bunun "büyük yalan" olmadığını düşünecekler.

**HAFIZA SADECE CEZALANDIRMAK İÇİN DEĞİL**

26 Şubat 1992 tarihinde Azerbaycan'ın Dağlık Karabağ bölgesinde yerleşen Hocalı şehrinde insanlık dışı vahim bir facia yaşandı. Çocuk ve kadınlar dâhil siviller Ermenistan askerî güçleri ve onların yönetiminde bulunan Rusya askerî birliği tarafından barbarca katledildi. Bu soykırım nefretin zaferi idi. Hocalı katliamını yapanlar Ermenistan mahkemesi tarafından yargılandı mı? Maalesef, Ermenistan'ın şimdiki Devlet Başkanı Serj Sarkisyan, çok rahatça, "Azerbaycanlılar ilk başta bizi ciddiye almıyor, bizim sanki şaka yaptığımızı, sivillere dokunmayacağımızı düşünüyorlardı. Biz ise sivilleri vurmama stereotipini kırmayı başardık." (Thomas de Waal. Black Garden: Armenia and Azerbaijan Through Peace and War-2004) diyebiliyor. Yani Hocalı soykırımını yapanlar, Azerbaycan halkını korkutmak, Dağlık Karabağ ve çevresindeki yerleşim birimlerinde Azerbaycanlılara karşı etnik temizleme politikası uygulamak ve Azerbaycanlılardan kısas almak için bu katliamı yaptıklarını açıkladılar.

Hafızanın tek işlevi büyük katliam yapanların lanetlenmesini sağlamak değildir. Hafızanın işlevlerinden biri de insanların özelliklerine göre takip edilmesi, fiziksel ve manevi açıdan yok edilmesi tehlikesi konusunda uyarıda bulunmak, devletleri, halkları ve insanları söz konusu tehlikeyle mücadelede birleştirmektir. Kimliğine bakılmaksızın sivillerine yönelik saldırı, toplu katliam, soykırım yapılan bir devletin bunu araştırması ve suçluların cezalandırılması için elinden geleni yapması gerekmektedir. Yakın tarihte yaşanmış, tanıkları ve mağdurları bulunan facialar için devlet yetkilileri üzüntülerini dile getirmeli, facianın ideologları ve onu gerçekleştirenler şiddetle kınanmalı, katliamın sorumluları cezalandırılmalıdır. Kanaatimce bu, halkın, devletin medeni adlandırılması için gerekli olan şartlardan biridir. Aksi takdirde facianın sorumlularının Birleşmiş Milletler ve diğer ilgili uluslararası ceza mahkemeleri tarafından yargılanması gerekir. Bu bağlamda Holokost'un Nürnberg mahkemesi, ayrıca Japonya, Ruanda ve eski Yugoslavya'daki suçlara ilişkin kurulan mahkemeler örnek gösterilebilir. Artık geleceği düşünmek, nefreti yok etmek, barışı sağlamak hakkında düşünmemiz gerekir. Eğer düşman sıfatını yeniden rakip sıfatına dönüştürebilirsek, savaş isteğini azaltarak huzur içinde yaşamak için çalışmak mümkün olabilir. Bu çok zor, ama imkânsız değil...



# ESFİDİP LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ KONFRANS VƏ TƏRƏFDAŞLARIN ÜMUMİ GÖRÜŞÜ

Yanvarın 15-16-da "Əlilliyi olan şəxslərin Azərbaycanın ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması (ESFİDİP)" Tempus layihəsi çərçivəsində Gəncə Dövlət Universitetinin II tədris binasının iclas zalında "Təhsil hamı üçün - maneələri yox edək, qapıları açaq" adlı təbliğat konfransı keçirildi. Konfransın əsas məqsədi Azərbaycan ali təhsil müəssisələrinə əlilliyi olan tələbələrin cəlb edilməsi və dəstəklənməsi üçün uyğun siyasətin və təlimatın hazırlanması və yerli tərəfdaş universitetlərdə əlilliyi olan tələbələr üçün mərkəzlərin yaradılması haqqında ictimayyəti məlumatlandırmaq idi. Konfransda layihənin milli tərəfdaşları olan Əlil Təşkilatları İttifaqı, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və respublikanın altı tərəfdaş ali məktəbinin nümayəndələri iştirak edirdilər.

Gəncə Dövlət Universitetinin Humanitar məsələlər üzrə prorektoru dosent Asif Cavadov konfransı giriş sözü ilə açaraq, əlilliyi olan şəxslərin Azərbaycanın ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması məsələsini müasir dövrdə ən humanist addımlardan biri kimi qiymətləndirdi, Gəncə Dövlət Universitetinin tərəfdaş kimi layihənin reallaşmasına məsuliyyətlə yanaşdığını, görülən və görüləcək işlərdən qısa şəkildə danışdı. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşı Hüseyn Hümbətov, Əlil Təşkilatları İttifaqının sədri Davud Rəhimli və qeyri-hökümət təşkilatı olan Əlil Qadınlar Cəmiyyətinin sədri Elmira İsmayılova çıxış etdilər.

Xəzər Universitetindən layihə meneceri Rima Məmmədova bu sahədə olan Avropa təcrübəsinin yerli universitetlərə tətbiqi, yerli tərəfdaş universitetlərdə əlilliyi olan tələbələr üçün mərkəzlərin yaradılması, layihənin təbliğatı, davamlılığı üçün görülən işlərdən və növbəti fəaliyyət haqqında məlumat verdi.

Konfransın növbəti günü, yanvarın 16-da Gəncə Dövlət Universitetinin əsas binasının akt zalında yerli tərəfdaşların ümumi idarəetmə görüşü oldu. Görüşdə Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasının müəllimi Şamxal Məmmədov, Azərbaycan Dövlət İqtisad Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı Gülşən Vəliyeva, Sumqayıt Dövlət Universitetinin Beynəlxalq tərəfdaşlıq şöbəsinin müdiri Turqay Hüseynov və Gəncə Dövlət Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Ruslan Məmmədov iştirak etdilər və pilot proqram, təlimatlar üzərində iş və maliyyə məsələlərini müzakirə etdilər.

Görüşün sonunda layihə koordinatoru Rima Məmmədova tədbir iştirakçılarına Xəzər Universitetinin tərəfdaş olduğu iki layihə – PACT və "Strengthening the Specific Role of Universities as LLL Institutions" haqqında məlumat verdi.

# ESFIDIP

## AWARENESS-RAISING CONFERENCE AND CONSORTIUM MEETING AT GANJA STATE UNIVERSITY

On January 15, a meeting was held at Ganja State University for the "Establishment of a Foundation for the Integration of Disabled People into HEIs of Azerbaijan" (ESFIDIP) TEMPUS project. The meeting included an awareness raising conference entitled "Education is for everyone: let's get rid of obstacles and open the doors." The main objective of the conference was to inform the public about the project and the current work being undertaken by local partner universities to prepare policies and establish Centers for Students with Disabilities and recruit more disabled students to higher education institutions. Representatives from national partners in the project including Union of Organizations for the Disabled of Azerbaijan Republic, the Ministry of Labor and Social Protection of the Population, and six higher education institutions participated in the conference.

Several presentations were made at the conference to explain the project and its significance to Azerbaijani society. Rima Mammadova, project manager of the ESFIDIP TEMPUS project and coordinator of the Center for Students with Disabilities at Khazar University, also made a presentation about implementing European experience in this field into local universities, creation of centers for students with disabilities in local partner universities, and work that has been done to ensure strong dissemination and sustainability of the project.



On the following day, January 16, an administrative meeting of local project partners was held in Ganja State University's conference hall. Participants in the meeting included Shamkhal Mammadov, instructor for the International Relations Department at Nakhchivan State University; Gulshan Valiyeva, representative of the International Affairs Department at Azerbaijan State Economics University; Turgay Huseynov, head of the International Partnership Office at Sumgayit State University; and Ruslan Mammadov, head of the International Affairs Office of Ganja State University. They discussed the project's pilot program, training programs, and financial issues.



At the end of the meeting, project coordinator Rima Mammadova also informed participants about two other projects of Khazar University, PACT (Project Actors' Capacity Training) and "Strengthening the Specific Role of Universities as LLL Institutions."




# TÜRKİYƏNİN GİRESUN UNİVERSİTETİNDƏ 20 YANVARLA BAĞLI KONFRANS

Yanvarın 20-də Türkiyənin Giresun Universitetində "20 Yanvar – Bakı qətliamı" adlı elmi konfrans keçirildi. Konfransda Giresun Universitetinin rektoru professor Aygün Attar, Türkiyə Jandarma Qoşunları Region Komandanı General Mustafa Doğru, universitetin prorektorları, dekanlar, müəllimlər və tələbələr iştirak edirdilər.

Türkiyə və Azərbaycan dövlət himnlərinin oxunmasından sonra konfransda Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi Araz Aslanlı məruzə ilə çıxış etdi. A. Aslanlı çıxışında 20 yanvar hadisələrini fərqli istiqamətlərdən dəyərləndirdi, bu hadisələri Azərbaycanın qəhrəmanlıq tarixinin vacib bir mərhələsi kimi qiymətləndirdi. O, 20 yanvarın işğalçılıqla mübarizənin bir mərhələ kimi nəticəsi, eyni zamanda müstəqilliyin dönməzliyinin başlanğıcı olduğunu qeyd etdi. 20 yanvar hadisələri və qətliama cavab olaraq, şəhidlərin dəfni mərasiminə yüz minlərlə insanın toplanması bundan sonra heç bir qüvvənin Azərbaycanın müstəqilliyini əlindən ala bilməyəcəyinin göstəricisi idi.

Sonra çıxış edən professor A. Attar A. Aslanlıya təşəkkür edərək, Türk millətinin 20 yanvar qətliamını heç bir zaman unutmadığını və unutmayacağını vurğuladı.

Konfransın sonunda Türkiyə Jandarma Qoşunları Region Komandanı General Mustafa Doğru Araz Aslanlıya məruzəsinə görə təşəkkürnamə təqdim etdi.



## ELMİ ŞURANIN İCLASI

Yanvarın 21-də Xəzər Universitetinin rektoru, fəlsəfə doktoru Hassan Niknafsın sədrliyi ilə Elmi Şuranın növbəti iclası keçirildi. İclasda gündəliyə əsasən universitetdə Tədqiqat İşlərinə Yardım Mərkəzinin (Research Support Center) yaradılması haqqında Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar şurasının sədri professor Hamlet İsaxanlının, 2015-2016-cı tədris ilinin yaz semestrinə hazırlıq barədə rektor Hassan Niknafsın, doktorantura və dissertanturaya qəbul imtahanlarının nəticələri, dissertasiya mövzuları və elmi rəhbərlərin təsdiq edilməsi, dərs vəsaitlərinin qiymətləndirilməsi və uyğun tövsiyələrin hazırlanması üçün Metodiki Şuranın (MŞ) təşkil olunması, Azərbaycan dili və ədəbiyyatı departamentinin müəllimi, filologiya elmləri doktoru Xatirə Bəşirliyə professor elmi adının verilməsi haqqında Magistratura, doktorantura və elmi işlər bölməsinin müdiri, fəlsəfə doktoru Eldar Şahgəldiyevin, Tarix departamentinin müəllimi, fəlsəfə doktoru Nuridə Ataşiyə dosent elmi adının verilməsi barədə Tarix departamentinin müdiri, fəlsəfə doktoru Roza Arazovanın məlumatları müzakirə olundu və müvafiq qərarlar qəbul edildi.

Cari məsələlərin müzakirəsi ilə Elmi Şuranın işi başa çatdı.

## DOKTORANTIMIZIN HƏMMÜƏLLİFİ OLDUĞU KİTAB

Fəlsəfə doktoru Hüseyn İbrahimov və Xəzər Universitetinin doktorantı Şəhriyar Ağamirzəoğlunun həmmüəllifləri olduğu "Müasir ictimai həyat paradiqmaları" adlı elmi kitab 2015-ci ildə Bakıda "Nafta-Press" nəşriyyatı tərəfindən çap olunmuşdur.

Kitabda müasir ictimai həyat paradiqmalarından bəhs edilir, Azərbaycanda mədəniyyətlərin dialoqu və digər mühüm məsələlərin araşdırılmasına və təhlilinə geniş yer verilir.

Kitab qloballaşan dünyada bəzi mühüm paradiqmaların daha ətraflı öyrənilməsi istiqamətində aydın elmi fikir formalaşdırır. Elmi düşüncələrin müasir dövrdə aktual istiqamətlərinin sosio - mədəni inkişaf tixafomiyaları təhlil və araşdırma predmetini təşkil edir.

Kitab ictimai və siyasi fənlər sahəsində fəaliyyət göstərənlər və tədqiqatçılar üçün faydalı məlumat mənbəyidir.




## XƏZƏR UNİVERSİTETİNDƏ ELMİ NƏŞRLƏRİN YAZILMASINA DƏSTƏK MƏRKƏZİ YARADILDI

Xəzər Universitetində yaradılmış Elmi Nəşrlərin Yazılmasına Dəstək Mərkəzinin əsasnaməsində göstərilir ki, Mərkəzin əsas məqsədi elmi fəaliyyətin inkişafı və dünya səviyyəsində elmi tədqiqatların aparılması ilə yanaşı, professor-müəllim heyətinin beynəlxalq aləmdə tanınmış (Web of Science- Nhomson Reuters kimi) jurnallarda məqalələrinin dərc olunmasına dəstək verilməsi və onların sayının artırılmasından ibarətdir.

# Əhməd kimi ol!

## XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏSİ SOSİAL ŞƏBƏKƏDƏ MƏŞHURLAŞDI




*Yanvarın 26-da **lent.az** xəbər saytı Xəzər Universitetinin tələbəsi Rüfət Məmmədli haqqında material hazırlamışdır. Material onun "Facebook" sosial şəbəkəsində "Əhməd kimi ol" adlı səhifə açması və həmin günlərin ən populyar mövzularından birinə çevrilməsi ilə bağlı APA TV-nin "Səhər zəngi" verilişinin qonağı olarkən söylədikləri əsasında hazırlanmış və veriliş həmin səhifəyə yerləşdirilmişdir. Verilişin mətnini aşağıda oxucularımıza təqdim edirik.*

*Əlavə olaraq qeyd edək ki, 2013-cü il iyulun 6-7-də Bakıda Gürcüstan Universitetinin "UG-Group"u və Azərbaycanın təhsil portalı olan "İlk Addımlar"ın təşkilatçılığı ilə veb texnologiyalar mövzusunda beynəlxalq konfrans keçirilərkən, **Twitter**-də ən çox #webcon hashtag-i ilə paylaşımlar edən Rüfət Məmmədli "Huawei Mediapad 10 FHD" planşeti ilə mükafatlandırılmışdı.*

### "Əhməd kimi ol" facebook səhifəsinin müəllifi: "Səhifənin belə tez populyarlaşacağına inanmırdım"

"19 yaşım var. Xəzər Universitetində kompüter mühəndisliyi üzrə təhsil alıram. "Facebook" sosial şəbəkəsində "Əhməd kimi ol" adlı bir səhifə açdım, dərhal da populyarlaşdı". Bu fikirləri APA TV- nin "Səhər zəngi" verilişinin qonağı, tələbə Rüfət Məmmədli deyib.

O qeyd edib ki, "caps"lər yaratmağa marağı səbəbsiz deyil: "Be like Bill" adlı səhifə qarşıma çıxanda məndə yeni ideya yarandı. Həmin səhifədə sosial problemləri insanlara yumor vasitəsilə çatdırırlar. Qərara gəldim ki, mən də belə bir səhifə yaradım, "Əhməd haradadır" filminin qəhrəmanını prototip olaraq istifadə etdim. Səhifə Türkiyə mətbuatında da yayıldı və tanındı. Səhifə 4 günə 15 min izləyici topladı. Əhməd hər kəsə nümunədir".

R. Məmmədli bildirib ki, işə başlayanda "Be like Bill" səhifəsindən tərcümələr edib, daha sonra isə yeni "caps"lər yaradıb: "Öncə, tərcümələr etdik, sonra isə sifarişlər almağa başladıq. Maraqlı və aktual məsələlərə dair "caps"lər hazırlamağımız üçün təkliflər verməyə başladılar. Səhifənin bu qədər populyarlaşacağına inanmırdım. Amma bu işə o qədər də ciddi baxmıram. Çünki bu trenddi. Trend isə müvəqqəti olur, yaddan çıxır. Əslində, bu mənim işim deyil. Bu səhifəni hobbi kimi açmışam. Məqsədim İT sahəsində "Startup" layihələrdə çalışıb, onları xaricə çıxarmaqdır. Xaricdə imkanlar çoxdur. İT sahəsində çalışmaq istədiyim üçün xaricə gedib, orada işləmək istəyirəm. İlk növbədə, ABŞ, alınmasa, Avropa ölkələrində, məsələn, Almaniyada da bu sahədə çalışmaq olar".

*http://news.lent.az/news/230263.*



## HAMLET İSAXANLI "BÖYÜK BRİTANİYA - AZƏRBAYCAN ALİ TƏHSİL FORUMU"NDA



Fevralın 10-da British Council və Azərbaycan Respublikası Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə Londonda "Böyük Britaniya-Azərbaycan Ali Təhsil Forumu" (*"UK-Azerbaijan Higher Education Forum"*) keçirildi. Forumda Azərbaycan və Böyük Britaniya universitetlərinin rəhbərlikləri, British Council-in və Azərbaycan Respublikası Təhsil Nazirliyinin nümayəndələri iştirak edirdilər.

Forumda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, professor Hamlet İsaxanlı məruzə ilə çıxış edərək, Xəzər Universiteti və "Xəzər" – Böyük Britaniya akademik əlaqələri haqqında danışdı, qonaqların suallarını cavablandırdı.

H. İsaxanlı, həmçinin, forumda müzakirələrdə iştirak etdi və ikitərəfli əlaqələrin qurulması üçün təkbətək görüşlər keçirdi.






# XƏZƏR UNİVERSİTETİ AVRASİYA BEYNƏLXALQ ALİ TƏHSİL SAMMİTİNDƏ

Xəzər Universiteti fevralın 17-19-da Türkiyənin İstanbul şəhərində Avrasiya Universitetləri Birliyi (EURAS) tərəfindən təşkil olunmuş Avrasiya Beynəlxalq Ali Təhsil Sammitində (EURIE) iştirak etmişdir.

Xəzər Universitetini sammitdə universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və Beynəlxalq əlaqələr şöbəsinin direktoru Turan Cəfərova təmsil edirdilər.

**SAMMİTƏ AVSTRALİYA, AZƏRBAYCAN, İTALİYA, QIRĞIZISTAN, QAZAXISTAN, FİLİPPİN, RUMINİYA, İSPANİYA, TÜRKİYƏ, BİRLƏŞMİŞ KRALLIQ VƏ ABŞ DA DAXİL OLMAQLA, BİR ÇOX ÖLKƏLƏRDƏN APARICI UNİVERSİTETLƏR QATILMIŞDI.**





EURIE - 2016 sammitinin proqramına panel sessiyalar, dəyirmi masa müzakirələri, nüfuzlu spikerlərin seminarları və həmçinin, təhsil sərgisi daxil idi.

Xəzər Universiteti həm təhsil sərgisində, həm də sammitin digər tədbirlərində iştirak etmişdir. Universitetin stendi sammitin bütün günlərində iştirakçılar üçün açıq olmuşdur.









# SORĞU NƏTİCƏLƏRİNİN TƏQDİMATI

Yanvarın 19-da Xəzər Universitetində Avropa Komissiyasının Qafqazda sabitlik və qeyri-sabitlik amillərinin öyrənilməsi layihəsi çərçivəsində keçirilmiş "Vətəndaş içtirakçılığı və QHT-lərə cəmiyyətimizdə münasibət" haqqında rəy sorğusunun təqdimatı keçirildi. Sorğu Xəzər Universitetinin Avrasiya və Orta Şərq Araşdırmaları Mərkəzi (AOŞAM) və Sosial Tədqiqatlar üzrə Beynəlxalq Mərkəz (STBM) tərəfindən aparılmışdır. Tədbirdə Azərbaycan Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının rəhbərliyi, Strateji Araşdırmalar Mərkəzinin nümayəndələri, Mədən Hasilatı Sənayesində Beynəlxalq Şəffaflıq Təşəbbüsü üzrə QHT Koalisiyasının rəhbərliyi, bir neçə başqa aparıcı QHT rəhbərləri və Xəzər Universitetinin tədqiqatçıları iştirak edirdilər.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı təqdimat iştirakçılarını salamladı və universitetdə sosial tədqiqatların aparılması üçün yaradılmış şərait haqqında məlumat verdi. STBM-in direktor müavini Tahir Fərhadov və elmi məsləhətçisi İradə Bağırova təqdimatla çıxış etdilər.



Tədbirin sonunda sorğu nəticələri müzakirə olundu. Əldə edilmiş məlumatların vətəndaş iştirakçılığı məsələlərinin öyrənilməsində önəmli olması vurğulandı. Qeyd edildi ki, fəal vətəndaş cəmiyyəti qurumları ilə hökumət arasında konstruktiv dialoq cəmiyyətdə sabitliyi artıran amillərdən biridir, bu işin uğurla aparılması üçün insanlar arasında etimadın artırılması və qanunvericilikdə bundan ötrü daha da münasib qaydaların yaradılmasına zərurətin olması bildirildi.

Bu cür sorğuların müntəzəm aparılması tövsiyə edildi və bu sahədə universitet, QHT sektoru və Azərbaycan Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının əməkdaşlığının vacibliyi qeyd olundu.





## PUBLIC OPINION SURVEY PRESENTATION

The Khazar University Center for Eurasia and Middle East Studies (CEMES) and International Center for Social Research (ICSR) jointly conducted a presentation of the outcomes of a public opinion survey on civil society perceptions in Azerbaijan on January 19, 2016 at Khazar University. The survey was a part of research program supported by the EU project "Intra-and Inter-Societal Sources of (In)Stability in the Caucasus and EU Opportunities to Respond" (ISSICEU).

Leadership of the State Council for NGO support under the President of the Republic of Azerbaijan, representatives of the Center for Strategic Research, Leadership of the NGO coalition on Extractive Industries Transparency Initiative, NGO activists and Khazar University academics attended the event. Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, welcomed the guests and informed them about the significance of social studies in research and educational programs of the university.

The survey outcomes were presented by Tahir Faradov, ICSR Deputy Director, and Irada Bagirova, academic consultant of the Center. Then a lively discussion of survey data followed. It was noted that the survey data made a significant contribution to the study of civic participation in Azerbaijan. The dialogue between civil society institutions and the government was emphasized as important factor of social stability. Successful implementation of such dialogue requires the increase of trust among people and further improvement of legal regulations for civic participation. Implementation of regular public opinion surveys on the subject was recommended, and cooperation among the university, NGO sector and the State Council for NGO support was indicated as helpful contribution to such work.













# MƏZUNLARDAN İBARƏT İŞÇİ QRUPLA GÖRÜŞ

Yanvarın 23-də Xəzər Universitetinin məzunlarından ibarət işçi qrupu ilə universitet rəhbərliyinin görüşü keçirildi. Məzunlarla İş Mərkəzinin direktoru Baba Bayramlı görüşü açaraq, iştirakçılara işçi qrupun yaradılmasının məqsədləri barədə qısa məlumat verdi.

Sonra Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı məzunları səmimi salamladı və Məzunlar Assosiasiyasının yaradılmasının həm məzunlar, həm də Xəzər Universiteti üçün faydalı nəticələr verəcəyinə inandığını bildirdi. O, bu sahədə beynəlxalq təcrübənin öyrənilməsinin vacib olduğunu xüsusi vurğuladı.

İşçi qrupun üzvlərindən "Bank of Baku"nun sədr müavini Eldar Həmidov, "Yarat" İncəsənət Mərkəzinin Əlaqələr üzrə meneceri Hökümə Kərimova, "Nar Mobile" şirkətinin Bazarın tədqiqi üzrə meneceri Səlbin Ələkbərova, ADA Universitetinin müəllimi, fəlsəfə doktoru Rəşad İbadov, "Əmrahbank"ın sədrinin müşaviri Namiq Kərimov, Bakı Hüquq Mərkəzinin məsləhətçisi Mətin Əsgər, ARDNŞ-nın İnsan resursları departamentinin əməkdaşı Nigar Kərimova, Xarici İşlər Nazirliyinin nümayəndəsi Elmar Bağırov və Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs çıxış edərək, işçi qrupun fəaliyyəti, Məzunlar Assosiasiyasının yaradılması mexanizmi və fəaliyyət istiqamətləri ilə bağlı konkret təkliflər irəli sürdülər.

Müzakirələrə yekun vuran H. İsaxanlı irəli sürülən təkliflərə öz münasibətini bildirdi və qarşıda duran vəzifələrlə bağlı işçi qrupa tövsiyələrini bildirdi.





## İRAN İSLAM RESPUBLİKASININ SƏFİRLİYİNDƏ GÖRÜŞ

Fevralın 9-da Xəzər Universiteti Beynəlxalq əlaqələr şöbəsinin nümayəndələri (direktor Turan Cəfərova, direktor assistenti Günay Fərzəliyeva) İran İslam Respublikasının Azərbaycandakı səfirliyində oldular. Görüş Beynəlxalq əlaqələr şöbəsi tərəfindən təşkil olunmuşdu.

Xəzər Universitetinin nümayəndələri səfirliyin attaşesi Mohammad Ali Ramezan Nejad Esboee ilə görüşdülər. Xəzər Universiteti və onun fakültələri, Azərbaycan daxilində və xaricdəki universitetlər arasında reytinqi, xarici universitetlərlə əməkdaşlığı haqqında məlumat verdilər. Turan Cəfərova vurğuladı ki, Xəzər Universiteti təklif etdiyi tədris proqramlarının İranda gənclər arasında təbliğinə böyük maraq göstərir. Həmçinin də, Xəzər Universitetinin İran universitetləri ilə möhkəm əlaqələrinin və uzunmüddətli əməkdaşlıqlarının olduğu qeyd edildi.

Günay Fərzəliyeva növbəti tədris ili üçün beynəlxalq qəbul, əcnəbi tələbələrə təklif olunan proqramlar, İran və digər ölkələrdən olan tələbələr üçün təqaüd imkanlarından danışdı. Xəzər Universitetinin təbliğat materialları səfirliyin nümayəndələrinə təqdim edildi.

## MEETING AT THE EMBASSY OF THE ISLAMIC REPUBLIC OF IRAN

On February 9, the International Affairs Office staff (Ms. Turan Jafarova, Director of International Affairs Office, and Ms. Gunay Farzaliyeva, Director's Assistant), visited the Embassy of the Islamic Republic of Iran. The meeting was organized by the International Affairs Office.

Representatives of Khazar University met with the attaché, Mr. Mohammad Ali Ramezan Nejad Esboee.

International Affairs Office staff provided information about Khazar University, its schools, ranking among other universities in and outside of Azerbaijan and partnerships with foreign universities. Ms. Turan Jafarova emphasized that the university was interested in raising awareness of young people in Iran about study programs offered by Khazar University. It was also mentioned that Khazar University had strong ties and a long history of cooperating with universities in Iran.

Ms. Gunay Farzaliyeva made a presentation about the current admission cycle for the upcoming academic year, programs offered to international students, and scholarship opportunities open to citizens of Iran as well as to nationals from all countries. Promotional materials of Khazar University were presented to the Embassy representative.

## AZƏRBAYCANDAN "BEYİN KÖÇÜ"NÜN QARŞISINI NECƏ ALMAQ OLAR

Fevralın 3-də "Exo" qəzetinin internet səhifəsində "Azərbaycandan "beyin köçü"nün qarşısını necə almaq olar?" (rusca) adlı məqalədə təhsil ekspertlərindən biri olaraq, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, professor Hamlet İsaxanlının rəyinə və tövsiyələrinə geniş yer verilmişdir.

Məqaləni tam şəkildə bu linkdən oxumaq olar:
*http://echo.az/article.php?aid=95789*






# İRAQ SƏFİRLİYİNDƏ GÖRÜŞ

Fevralın 10-da Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin direktoru Turan Cəfərova və direktor assistenti Günay Fərzəliyeva İraq Respublikasının Azərbaycandakı səfirliyində oldular. Görüş 2016-2017-ci tədris ili üçün nəzərdə tutulan təbliğat proqramı çərçivəsində Beynəlxalq əlaqələr şöbəsi tərəfindən təşkil olunmuşdu.

Xəzər Universitetinin nümayəndələri İraqın Azərbaycandakı müvəqqəti işlər vəkili Fazil Avvad Əşşüveyli, müşaviri Əbdülhakim İsmail Al-Yass və tələbə işləri üzrə məsul şəxs Vurud Hammad Muşref ilə görüşdülər.

Turan Cəfərova Xəzər Universiteti, onun fakültələri və 2016-2017-ci tədris ili üçün təklif olunan proqramları,universitetin beynəlmiləlləşdirmə siyasəti, müxtəlif ölkələrdən olan bir çox universitetlərlə əməkdaşlığından və Xəzər Universitetinin beynəlxalq reytinq cədvəllərində yüksək yer tutduğundan danışdı, növbəti tədris ili üçün açıq olan beynəlxalq qəbul proqramı və iraqlı gənclərə təklif olunan təqaüd imkanları haqqında məlumat verdi.

Görüş zamanı nəzərə çatdırıldı ki, Xəzər Universitetinin nəzdində yaradılmış, Azərbaycan Respublikası Təhsil Nazirliyinin və Beynəlxalq Bakalavr Təşkilatının lisenziyası əsasında fəaliyyət göstərən "Dünya" məktəbində ibtidai və orta təhsillə yanaşı, məktəbəqədər hazırlıq sinifləri və beynəlxalq bakalavr diplom proqramı da təklif olunur.

Fazil Avvad Əşşüveyli Xəzər Universiteti tərəfindən təklif olunan proqramlara və imkanlara marağını ifadə etdi və vurğuladı ki, İraq universitetləri ilə əməkdaşlığın qurulması üçün Xəzər Universitetinin İraqda gənclər, tələbələr və mütəxəssislər arasında təbliği çox önəmlidir.

# MEETİNG AT THE EMBASSY OF THE REPUBLIC OF IRAQ

On February 10, Turan Jafarova, Director of the International Affairs Office, and Gunay Farzaliyeva, Director's Assistant, visited the Embassy of the Republic of Iraq. The meeting was organized by the International Affairs Office as part of the recruitment plan for the 2016-2017 academic year.

Representatives of Khazar University met with Charge d'affaires Mr. Dr. Fadhil Awad Al-Shuwaili; counselor, Mr. Abdulhakeem Ismael Al-Yass; and student affairs counselor, Ms. Worood Hammad Mushref.

Ms. Turan Jafarova provided information about Khazar University, its schools and programs offered for the 2016-2017 academic year. Detailed information was also provided about internationalization at Khazar University and its partnerships with numerous universities from various countries as well as Khazar University's achievements reflected in high positions the university occupies in internationally recognized rankings. Ms. Jafarova spoke about international admission and scholarship opportunities available for Iraqi youth for the upcoming academic year. Information about Dunya School, an affiliate of Khazar University accredited by the Ministry of Education of Azerbaijan and the International Baccalaureate Organization (IBO), was also provided. Dunya School offers preschool and school education as well as the IB diploma program.

Mr. Dr. Fadhil Awad Al-Shuwaili expressed his interest in programs and opportunities offered by Khazar University and stressed that building partnerships with Iraqi universities was crucial in promotion of the university among Iraqi youth, students, and professionals.



## İNDONEZİYA SƏFİRLİYİNİN NÜMAYƏNDƏLƏRİ XƏZƏR UNİVERSİTETİNDƏ

Fevralın 12-də Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs və Beynəlxalq əlaqələr şöbəsinin nümayəndələri (direktor Turan Cəfərova və direktor assistenti Günay Fərzəliyeva) İndoneziyanın Azərbaycandakı səfirliyinin təmsilçiləri ilə görüşdülər. Görüş Beynəlxalq əlaqələr şöbəsi tərəfindən təşkil olunmuşdu və universitetin Neftçilər kampusunda keçirildi.

Xəzər Universitetinin nümayəndələri müvəqqəti işlər vəkili Meita Timoer Poerwonggo, birinci katib Anggraeni Widiastuti və baş administrativ assistent Pərvanə Kərimova ilə görüşdülər.

Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs Xəzər Universitetinin tarixi, fakültə və proqramları, Azərbaycan daxilində və xaricdəki universitetlər arasında reytinqi, beynəlxalq əlaqələrin gücləndirilməsi siyasəti haqqında məlumat verdi. O vurğuladı ki, universitetimiz İndoneziyadan tələbələr cəlb etməyə və bu ölkənin universitetləri ilə əməkdaşlığı gücləndirməyə maraqlıdır. H. Niknafs təhsil, elm və biznesi vahid şəkildə özündə birləşdirməyi nəzərdə tutan Xəzər Universiteti İnnovasiya Mərkəzi (Techno-Park) və "Dünya" məktəbi də daxil olmaqla, universitetin digər kampusları və resursları haqqında da danışdı. Xəzər Universitetinin təbliğat materiallarından ibarət paket səfirliyin nümayəndələrinə təqdim edildi.

Meita Timoer Poerwonggo bildirdi ki, Xəzər Universitetinin İndoneziya vətəndaşlarına yaratdığı imkanlar və təqaüd proqramı onlar üçün maraqlıdır və vurğuladı ki, səfirlik Xəzər Universitetini proqramlarının İndoneziyada gənclər və mütəxəssislər arasında təbliğində və İndoneziya universitetləri ilə əməkdaşlıq qurulmasında dəstəkləyəcək.

## INDONESIAN EMBASSY REPRESENTATIVES VISIT KHAZAR UNIVERSITY

On February 12, Dr. Hassan Niknafs, Rector of Khazar University, and the International Affairs Office staff (Turan Jafarova, Director, and Gunay Farzaliyeva, Director's Assistant) hosted representatives of the Embassy of the Republic of Indonesia at Khazar University. The meeting was organized by the International Affairs Office and took place in the Neftchilar campus of the University.

Representatives of Khazar University met with Charge d'affaires Mr.Meita Timoer Poerwonggo; First Secretary, Ms. Anggraeni Widiastuti; and Ms. Parvana Karimova, Senior Administrative Assistant.

Dr. Hassan Niknafs presented information about Khazar University, its history, schools and programs, its ranking among other universities in and outside of Azerbaijan and its internationalization strategy. He emphasized that the university is interested in attracting students from Indonesia and in strengthening cooperation with universities in Indonesia. Dr. Niknafs also spoke about other campuses and facilities of the university, including Khazar University Innovation Center (Technopark) that aims to integrate education, science, and business, and Dunya School. The Khazar University promotional package was presented to the representatives of the embassy.

Mr. Meita Timoer Poerwonggo expressed a strong interest in opportunities provided by Khazar University for the citizens of Indonesia through its scholarship program, and stressed that the embassy would support Khazar University in promotion of its programs among young people and professionals in Indonesia and in building partnerships with Indonesian universities.




## MEKSİKA SƏFİRİNDƏN TƏŞƏKKÜR MƏKTUBU

Meksikanın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Rodrigo Labardini fevralın 9-da Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıya məktub göndərmişdir. Səfir 2015-ci ilin dekabrında Meksika Film Günləri təşkil etdiyi üçün Xəzər Universitetinə məktub vasitəsilə öz təşəkkürünü bildirmişdir.

**Mr. Hamlet Isakhanli**
**Founder and Chairman,**
**Board of Directors and Trustees of**
**Khazar University**

Dear Hamlet,

As a result of the opening of the Embassy of the United Mexican States in Azerbaijan on October 1, 2014, the ties between Mexico and Azerbaijan have moved to a new phase of collaboration. Since that day, the Embassy has been involved in several events such as tourist promotion, conferences and many others. This was the main objective to bring both nations together.

As a fast growing country, the presence of Mexico in Azerbaijan is crucial and this factor opens new opportunities to stimulate tourism, commerce and political relations between the two countries. Of course, Khazar University has had a very special role in all of this by contributing with the organization of Mexican Film Days in December 7-25, 2015.

It is of my conviction that in the near future the links between both countries will grow stronger and reach a new phase of development and prosperity.

With kind regards,
**Rodrigo Labardini**
*Ambassador*

## MƏHSULUN KEYFİYYƏTİNƏ "XƏZƏR"İN MƏZUNU NƏZARƏT EDİR

fevralın 5-də ***kaspi.az*** xəbər saytı Polad Boru Zavodundan reportaj hazırlayaraq, "Müasir texnologiyalı Azərbaycan məhsulu" adı ilə öz səhifəsinə yerləşdirmişdir. Reportajda Xəzər Universitetinin məzunu, "Azərtexnolayn" MMC-nin keyfiyyətə nəzarət üzrə mühəndisi kimi fəaliyyət göstərən Cavid Hacızadənin fikirlərinə yer verilmişdir.

Xəbəri tam şəkildə bu linkdən oxumaq olar: *http://kaspi.az/news.php?id=26886.*








## POTENSİAL MƏKTƏB DİREKTORLARI ÜÇÜN SEMİNAR



Fevralın 4-də "Potensial məktəb direktorları" inkişaf proqramında "Təhsil seminarı" silsiləsinin ilk qonağı Azərbaycanın tanınmış ziyalısı, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı oldu.

Seminar Təhsil fakültəsinin dekanı, fəlsəfə doktoru Elza Səmədovanın çıxışı ilə başladı. Sonra H. İsaxanlı çıxışında Azərbaycanda təhsil problemləri, onların həlli yolları və təhsilin idarə olunmsı məsələlərindən bəhs etdi, iştirakçıların suallarını cavablandırdı.

## "XƏZƏR"İN MÜƏLLİMİ GAMŞ-IN SƏDRİ SEÇİLDİ




Yanvarın 22-də AMEA Nəsimi adına Dilçilik İnstitutunda Gənc Alim və Mütəxəssislər Şurasının (GAMŞ) növbəti iclası keçirildi. İclasın gündəliyində olan məsələ şuraya sədr seçkisi ilə bağlı idi. Gizli səsvermənin nəticələrinə görə Kompüter dilçiliyi şöbəsinin böyük elmi işçisi, Xəzər Universitetinin Azərbaycan dili və ədəbiyyatı departamentinin müəllimi, filologiya üzrə fəl-səfə doktoru Cahid Kazımov Nəsimi adına Dilçilik İnstitutu Gənc Alim və Mütəxəssislər Şurasının sədri vəzifəsinə seçildi.

İclasda institutun direktoru vəzifəsini icra edən professor M. Nağısoylu çıxış etdi.




## QRANT SAHİBLƏRİ BELÇİKADA GÖRÜŞDÜLƏR

Yanvarın 27-28-də Belçikanın Brüssel şəhərində 2015-ci ildə **Erasmus+** proqramı çərçivəsində seçilmiş layihələrin koordinatorlarının görüşü keçirildi. Xəzər Universitetinin əməkdaşı Rima Məmmədova "Ombudsman vəzifəsi yaratmaqla tələbələrin təmsili təyin olunması" layihəsinin koordinatoru kimi bu görüşdə iştirak etdi. Görüş zamanı layihələrin idarə olunması, hesabatların verilməsi və keyfiyyətin yoxlanılması haqqında seminarlar keçirildi və müzakirələr aparıldı.

## GRANT HOLDERS' MEETING IN BELGIUM

On January 27-28, a meeting was held in Brussels, Belgium for coordinators of projects selected for funding within the Erasmus+ 2015 Program. Rima Mammadova, Khazar University's project coordinator, participated in the meeting as the coordinator for the Advocacy Establishment for Students through Ombudsman Position project. During the meetings, discussions and seminars were held on project management, accounting and quality control.






## "MƏRKƏZİ ASİYADA MƏDƏNİ TRANSFER" ADLI KİTAB ÇAP OLUNUB

Yanvarın 23-də Parisin Ali Normal Məktəbində (*ENS - Ecole Normale Superieure*) fransız dilində çapdan çıxmış "Mərkəzi Asiyada mədəni transfer" adlı kitabın (məqalələr toplusunun) təqdimat mərasimi keçirilmişdir.

Nəşrdə Mərkəzi Asiya regionunun arxeologiyası, tarixi, mədəni inkişafı və əlaqələrinin müxtəlif cəhətlərini əks etdirən 40-dan artıq məqalə toplanmışdır. Kitabın müəllifləri sırasında Fransa, İtaliya, Rusiya, Özbəkistan, Tacikistan alimləri ilə yanaşı, azərbaycanlı şərqşünas-tarixçilər – Xəzər Universitetinin Avrasiya və Orta Şərq Araşdırmaları Mərkəzinin müdiri, Tarix və arxeologiya departamentinin əməkdaşı Fərda Əsədov və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktor müavini, AMEA-nın müxbir üzvü Şahin Mustafayev və da var.

Kitabın redaktorlarından biri olan Şahin Mustafayev mərasimdə məruzə ilə çıxış etmişdir.

Xəbəri bu linkdən oxumaq olar:

*http://azertag.az/xeber/921088*

## "XƏZƏR"İN PAKİSTANLI TƏLƏBƏSİ GƏNCLƏR GÜNÜNDƏ FƏXRİ FƏRMANLA TƏLTİF OLUNDU

Fevralın 2-də Xəzər Universitetinin pakistanlı tələbəsi Usama Ahmed Khand (neft mühəndisliyi üzrə magistr, 2-ci kurs) Azərbaycanda Gənclər Gününə həsr olunmuş tədbirdə iştirak etdi.

Mərasim Binəqədi Rayon İcra Hakimiyyəti tərəfindən "Elite" əyləncə və istirahət mərkəzində təşkil olunmuşdu.

Usama Ahmed Khand Binəqədi rayonunun ictimai həyatında fəal iştirakına görə fəxri fərmanla təltif olunan gənclərdən biridir. Onun bu mükafata namizədliyini Xəzər Universitetinin "Dünya" məktəbi vermişdir. O, məktəbin bir çox layihələrində könüllü olaraq fəal iştirak etmişdir.

Usama Xəzər Universitetinin beynəlxalq tələbələrə açıq olan Xəzər Universiteti Beynəlxalq Təqaüd Proqramı çərçivəsində universitetə qəbul olunmuşdur.

## INTERNATIONAL STUDENT FROM PAKISTAN RECEIVES AWARD ON YOUTH DAY

On February 2, an international student of Khazar University from Pakistan, Usama Ahmed Khand (MS in Petroleum Engineering candidate, 2nd year) participated in the celebration and award ceremony for Youth Day in Azerbaijan.

The award ceremony and the celebration were organized by the local executive power of Binaqadi district at Elite Entertainment Center.

Usama was one of the young people awarded with an honorary diploma for their active involvement in the social life of Binaqadi district. Usama Ahmed Khand was nominated for this award by the administration of Dunya School, an affiliate of Khazar University, where he is actively involved in numerous projects on a volunteer basis.

Usama is one of the students who was admitted to Khazar University under the auspices of Khazar University International Scholarship Program, a merit-based scholarship open to nationals of all countries.

YOCOCU
YOuth in COnservation of CUltural Heritage

MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

GƏNCLƏRİN II BEYNƏLXALQ MƏDƏNİ İRS VƏ TURİZM FORUMU
BAKI, 1-2 FEVRAL, 2016

Gənclərin II Beynəlxalq Mədəni İrs və Turizm Forumu

2nd INTERNATIONAL YOUTH FORUM OF CULTURAL HERITAGE AND TOURISM
BAKU, 1-2 FEBRUARY, 2016



# "XƏZƏR"İN TƏLƏBƏLƏRİ BEYNƏLXALQ TƏDBİRDƏ

Fevralın 1-2-də Bakıda "MİRAS" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi və YOCOCU Mədəni İrsin Konservasiyasında Gənclər Beynəlxalq Assosiasiyasının birgə təşkilatçılığı ilə Gənclərin II Beynəlxalq Mədəni İrs və Turizm Forumu keçirildi. Forumda Xəzər Universiteti Tarix və arxeologiya departamentinin təşəbbüsü ilə universitetin tarix ixtisası üzrə təhsil alan tələbələri də iştirak edirdilər.

Tədbir iştirakçıları "MİRAS" İctimai Birliyinin təşkil etdiyi sərgi-yarmarka ilə tanış oldular. Forumun açılışında İctimai Birliyin sədri Fariz Xəlilli çıxış edərək, tədbirin məqsəd və əhəmiyyətindən danışdı. Tədbirdə Azərbaycanın gənc tədqiqatçıları ilə yanaşı, Türkiyə, Rusiya, Fransa, Hollandiya, Latviya, Macarıstan, Misir və Yəməndən mütəxəssislər də iştirak edirdilər. Mədəniyyət və turizm nazirinin müavini Nazim Səmədov forum iştirakçılarını salamlayaraq, tədbirin təşkilində "MİRAS" ictimai Birliyinin fəaliyyətini yüksək dəyərləndirdi.



Tədbirdə tarix elmləri doktoru Qafar Cəbiyev, Türkiyənin Azərbaycandakı səfirliyinin mədəniyyət və turizm işləri üzrə müşaviri Murad Karaçanta, YOCOCU Mədəni İrsin Konservasiyasında Gənclər Beynəlxalq Assosiasiyasının nümayəndəsi Andrea Macchia və başqaları müxtəlif ölkələrin mədəniyyətlərinin və turizm potensialının öyrənilməsində belə tədbirlərin əhəmiyyətini qeyd etdilər.

Sonra forumun işi "Araşdır", "Qoru" və "Təbliğ et" bölmələrində davam etdirildi. İclaslarda yerli və xarici mütəxəssislərin mövzuya dair məruzələri dinlənildi, müzakirələr aparıldı.

Tədbirin yekununda bütün iştirakçılara sertifikat təqdim olundu.









# XƏZƏR UNİVERSİTETİ "TƏLƏBƏ DÜNYASI" VERİLİŞİNDƏ

Fevralın 2-də Xəzər Universitetinin işçi və müəllim heyəti, həmçinin, tələbələri AzTV dövlət telekanalında yayımlanan "Tələbə dünyası" verilişinin qonağı oldular.

Xəzər Universiteti haqqında material iki buraxılışda yayımlandı. Birincisi beynəlmiləlləşdirmə və Avropaya inteqrasiyaya, ikincisi isə Azərbaycanda gənclər gününə həsr olunmuş veriliş idi.

İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva Xəzər Universitetinin bir çox beynəlxalq inkişaf layihələrində iştirakı haqqında məlumat verdi. Təhsil fakültəsinin dekanı Elza Səmədova türk universitetləri ilə əməkdaşlıq haqqında danışdı. Beynəlxalq əlaqələr şöbəsinin direktoru Turan Cəfərova Xəzər Universitetinin dünyanın bir çox ölkələrindəki universitetlərlə əməkdaşlıq əlaqələrindən və onların tələbə və işçi heyəti üçün yaratdığı imkanlardan danışdı. O, Xəzər Universitetinin Azərbaycanda təhsil almaq üçün xarici tələbələri cəlb etmək səylərindən də söz açdı.

Xəzər Universitetinin bir çox uzun və qısamüddətli mübadilə proqramlarında iştirak etmiş tələbələri xaricdə təhsil təcrübələrini bölüşdülər. Bu verilişə doktorantura tələbəsi Rima Məmmədova (Portuqaliyada Erasmus Mundus proqramının ELECTRA layihəsi çərçivəsində oxuyub), Mühəndislik və tətbiqi elmlər fakültəsinin tələbələri Rizvan Saatov (İspaniyada Erasmus Mundus proqramının EuroEast layihəsi çərçivəsində 2 semestr oxuyub) və Məhəmməd Xəlilov (İtaliyada Erasmus Mundus proqramının EuroEast layihəsi çərçivəsində 2 semestr oxuyub) müsahibə verdilər.

Fevral ayında Erasmus Plus proqramı çərçivəsində Türkiyədəki universitetlərdən birində 1 semestrlik mübadiləyə gedəcək Xəzər Universitetinin Mühəndislik və tətbiqi elmlər fakültəsinin tələbələri (Kompüter elmləri, bakalavr, 3-cü kurs tələbəsi Səidə Əhmədova; neft mühəndisliyi, bakalavr, 2-ci kurs tələbəsi Əzim Həşimov) də bu beynəlxalq təcrübədən gözlədiklərini və istəklərini bölüşdülər.

## MÜƏLLİMİMİZ HAQQINDA MƏQALƏ ÇAP OLUNMUŞDUR

Yanvarın 19-da ***strategiya.az*** xəbər saytında Xəzər Universitetinin müəllimi, hüquqşünas Akif Əlizadə haqqında məqalə çap olunmuşdur.

Məqaləni bu linkdən oxumaq olar:

*http://az.strategiya.az/index.php?do=xeber&id=48839*

*Məqaləni oxucularımıza təqdim edirik.*

STRATEGİYA.az



# VƏKİL AKİF ƏLİZADƏ HAQQINDA

Peyğəmbər əfəndimiz buyurur ki, kimsə sənə bir hərf öyrətsə, bir ömür sənin üzərində haqqı var. Bu gün mənim üzərimdə haqqı olan insanlardan biri haqqında, tanınmış hüquqşünas, təcrübəli vəkil Akif Əlizadə haqqında fikirlərimi bölüşəcəyəm.

Akif Əlizadə ilə ilk ünsiyyətimiz 2003-cü ildə vəkillik kursunda olub. İntiqam Əliyevin təşkil etdiyi vəkillik kurslarında bizə vəkilliyin müxtəlif aspektlərindən dərs deyib. Müəllim kimi səciyyələndirsək, bir çox müsbət komponetləri özündə ehtiva etdiyini qeyd etməliyik. Dostum Əkbər Bağırovun gözəl bir sözü var, deyir adam istənilən peşə sahibi ola bilər, amma müəllim ola bilməz. Əkbər Bağırov da gözəl bir müəllim ailəsində - Məmməd müəllimin ailəsində doğulub. O, atası Məmməd müəllimin simasında müəllim peşəsinin nə qədər müqəddəs və əvəzolunmaz olduğunu dərk etməklə bərabər başqalarına da aşılamağı bacarır. Akif Əlizadə məhz insanlara sevə-sevə elm öyrətməyi zövqlə yaşayan bir müəllimdir. Düzdü, biz vəkillik kursuna gələndə artıq ali təhsil almış hüquqşünaslar idik, amma peşə təcrübəmiz az olduğundan uzun illər məhkəmə ilə işləmiş Akif Əlizadə kimi təcrübəli müəllimə ehtiyacımız var idi və o bu ehtiyacı ən yüksək sevgi ilə həyata keçirməyi bacardı.

Akif Əlizadə uzun illərdi Xəzər Universitetində müəllimlik edir. Onun tələbələri müəllim kimi onunla ünsiyyətdən zövq alır.

Sonrakı illərdə Akif müəllimlə əməkdaşlığımız daha da intensivləşdi. İnsan Hüquqları üzrə Hüquqşünaslar Komitəsində "Məhkəmələrin monitorinqi", "Ədalətli məhkəmə araşdırması hüququnun monitorinqi", "İmkanların bərabərliyi" layihələri ilə biz tərəfdaş olmaqla bərabər həm də artıq dosta çevrildik. Bu arada bizim ümumi dostlarımızın sırasına daha bir dəyərli hüquqşünas, mənim köhnə dostum Ənnağı Məmmədli də qoşuldu. Akif Əlizadənin həyata keçirdiyi layihələr sırasında Ənnağı Məmədli ilə birlikdə icra etdiyimiz "İmkanların bərabərliyi" layihəsi məhkəmə sistemi üçün çox böyük töhfə oldu. Layihə çərçivəsində vəkillərlə prokurorların məhkəmədə imkanlarının bərabərliyi yoxlanıldı. Məlum oldu ki, həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı məhkəməyə daxil olan prokuror təqdimatlarının 100 faizi təmin olunur. Bu faktın araşdırılmasından sonra Ali Məhkəmə məsələ ilə bağlı Plenumun iclasını keçirdi, əsas olmadan ibtidai istintaq zamanı həbs qətimkan tədbiri seçdiyi üçün 42 nəfər hakimə töhmət verildi. Artıq həbs qətimkan tədbirini pul mənbəyinə çevirməyə çalışan prokuror və hakimlər başqa mənbələr axtarmağa məhkum oldular.

Akif müəllimin həyata keçirdiyi layihələrin hər biri haqqında ayrıca danışmaq, yaxud broşür hazırlamaq olar. Amma gündəlik qayğılar, vaxt qıtlığı, işin çoxluğu hələlik bu məqalə ilə kifayətlənməyə məcbur edir. Hər halda, kiçik də olsa, Akif Əlizadə şəxsiyyətini səciyyələndirən kiçik nüanslara toxunmağa çalışdım. Akif Əlizadə ictimai həyatımız üçün vacib şəxsiyyətlərdən biridir.

**Səməd Vəkilov,**
***hüquqşünas***







## BEYNƏLXALQ MULTİKULTURALİZM QIŞ MƏKTƏBİNİN İŞTİRAKÇILARI BİNƏQƏDİ RAYONUNDA

Fevralın 14-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM), Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və Bakı Slavyan Universitetinin birgə təşkilatçılığı ilə keçirilən "Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: öyrən, araşdır, paylaş - 2016" adlı Beynəlxalq Multikulturalizm Qış Məktəbinin iştirakçıları Binəqədi rayonunda olmuşlar.

Rusiya, İsveçrə, Ukrayna, Türkiyə, İtaliya, Portuqaliya, Polşa, Çexiya, Gürcüstan, Belarus, Bolqarıstan, Litva, İndoneziya, Yaponiya və Almaniyanın ali təhsil ocaqlarından və Azərbaycanın yerli universitetlərindən bu layihəyə qatılan qış məktəbi iştirakçıları əvvəlcə Binəqədi rayonunda yerləşən Heydər məscidində olmuşlar. Sonra onlar Heydər Əliyev adına istirahət parkını gəzmiş, qonaqlara rayonda görülən işlər haqqında məlumat verilmişdir.



Daha sonra qış məktəbi iştirakçıları ilə görüş keçirilmişdir. Görüşdə Binəqədi Rayon İcra Hakimiyyəti başçının müavini Aygün Əliyeva, Prezident Administrasiyasının əməkdaşı Sərraf Hüseynov çıxış edərək, bu cür layihələrin əhəmiyyətini, ölkəmizdə tolerantlıq və dinlərarası münasibətlərin yüksək səviyyədə olduğunu diqqətə çatdırmışlar.









Natiqlər Prezident İlham Əliyevin "Multikulturalizmin dünyada alternativi yoxdur. Azərbaycanda multikulturalizm yaşayır və yaşayacaq" fikrini özünə deviz seçən qış məktəbi iştirakçılarına uğurlar diləmişlər. Qonaqlara YUNESKO-nun Qeyri-maddi Mədəni İrs Siyahısına daxil edilmiş Azərbaycan kəlağayısı hədiyyə verilmişdir.





Görüşdə Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun icraçı direktoru Oktay Səmədov iştirak etmişdir.

Tədbirdə Xəzər Universitetinin Musiqi və İncəsənət departamentinin müdiri, pianoçu Zülfiyyə Sadıqovanın rəhbərliyi ilə universitetin musiqi kollektivləri geniş konsert proqramı ilə çıxış etmişlər.







## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNDƏ TƏLİM

Fevralın 4-5-də Təbrizin Şahid Madani Universitetinin tətbiqi linqvistika üzrə mütəxəssisi Dr. Farzad Salahşur Xəzər Universitetində İngilis dili və ədəbiyyatı departamentinin müəllim heyətinə dilçiliklə bağlı təlim keçirdi. Təlimdə dilçilik və ingilis dilinin tədrisi sahəsində mövcud problemlər və onların həlli yolları müzakirə olundu.




## GÖRKƏMLİ TÜRKŞÜNASIN ŞƏRƏFİNƏ KİTAB ÇAP OLUNUB

Almaniyanın ***"Otto Harrasowitz"*** nəşriyyatı ABŞ-ın Rugers Universitetinin Türkologiya və Orta Şərq Araşdırmaları üzrə fəxri professoru, tanınmış tarixçi və şərqşünas professor Peter Goldenin şərəfinə kitab buraxmışdır. Professor Goldenin Türk xalqları və Şərqi Avropanın orta əsr tarixinə həsr edilmiş çoxsaylı əsərləri bu elm sahəsinin fundamental nailiyyətləri sayılır.

Osman Karatayın və İştvan Zimonyinin redaktorluğu ilə buraxılmış kitabda müxtəlif ölkələrdən olan sahənin 32 aparıcı ekspertinin, o cümlədən, Thomas Allsen, Christopher I. Beckwith, Edmund Bosworth, Éva Á.Csatóç Lars Johanson, Devin DeWeese, Anatoly M.Khazanov, Roman Kovalev, Ruth Meserve, Uli Shamiloglu, Victor Spinei, İsenbike Togan və İstván Vásáryın türkşünas alim haqqında çap olunan kitabda məqalələri işıq üzü görmüşdür.

Görkəmli alimlərin yazıları sırasında Xəzər Universitetinin Avrasiya və Orta Şərq Araşdırmaları Mərkəzinin direktoru Fərda Əsədovun "Xəzər türklərinin erkən tarixinə dair" adlı məqaləsi də vardır.

## "XƏZƏR"İN DOKTORANTININ MƏQALƏSİ KANADA JURNALINDA

Xəzər Universitetinin doktorantı Nərminə Fətəliyevanın *"Social and cognitive implications of using euphemisms in English"* ("İngilis dilində evfemizmlərin sosial və koqnitiv təsirləri") adlı məqaləsi Kanada Elm və Təhsil Mərkəzinin *"International Journal of English linguistics"* (Vol.5. No 6, 2015, ISSN 1923-8703) adlı jurnalında çap olunmuşdur. Məqalədə müəllif müasir cəmiyyətdə evfemizmlərin əsas funksiyalarını araşdırmaqla yanaşı, evfemizm seçimini tənzimləyən sosial və koqnitiv faktorları müəyyən etməyə çalışır.

# DEPARTMENT HEAD ANALYZES EU-AZERBAIJAN RELATIONS AT INTERNATIONAL CONFERENCE IN BRUSSELS

On February 8, a conference on "Azerbaijan-EU relations: Challenges and opportunities" was held at the European Policy Centre in Brussels, Belgium. The event took place ahead of the visit of Federica Mogherini, the High Representative of the European Union for Foreign Affairs and Security Policy and Vice-President of the European Commission, to Azerbaijan.

Dr. Mukhtar Hajizada, Jean Monnet Chair and the Head of Department of Political Science and International Relations at Khazar University, participated in the event. He made a presentation in which he mentioned the reasons placing Azerbaijan on the political, cultural and legal map of Europe and emphasized the role of the cultural and social activities carried by the Azerbaijani government in that regard. He highlighted the opportunities offered by the revised European Neighbourhood Policy which allows the EU and its partners to cooperate on areas of common interest –areas both sides feel comfortable dealing with, including increased cooperation in the sectors of trade, projects, economic development and governance. Dr. Hajizada argued that the existing cooperation in the energy sector should not be taken for granted since the success of the European Union, an exemplary model of regional integration, became possible starting with cooperation in the energy sector following the end of the Second World War and the signing of peace agreements. He emphasized the necessity for the EU to step up its role in the Nagorno Karabagh peace process in trying to find a way to bring justice to the violations of international law and the grave breaches of international human rights law as a result of which hundreds of thousands of Azerbaijanis have suffered and continue suffering. Given the diverse representation of the audience, Dr. Hajizada suggested the establishment of EU Information and Resource Centers in Azerbaijan, which was welcomed by the EU and Azerbaijani officials.

The panel, moderated by Amanda Paul, analyzed Azerbaijani-EU relations and the prospects of future cooperation following the review of the European Neighbourhood Policy. Among the speakers were Dirk Schuebel, Head of the Division for Bilateral Relations with the Eastern Partnership Countries at the European External Action Service, Svante Cornell, Director of the Central Asia-Caucasus Institute and Silk Road Studies Programme at Johns Hopkins University, and Michel Ivor, Director of The Caucasus Interface.

# DEPARTAMENT MÜDİRİMİZ BRÜSSELDƏ "AZƏRBAYCAN – AVROPA İTTİFAQI MÜNASİBƏTLƏRİ. ÇAĞIRIŞLAR VƏ İMKANLAR" MÖVZUSUNDA MÜZAKİRƏLƏRDƏ ÇIXIŞ EDİB

Fevralın 11-də Brüsseldə, Avropanın nüfuzlu "beyin mərkəz"lərindən olan Avropa Siyasət Mərkəzində "Azərbaycan-Avropa İttifaqı münasibətləri. Çağırışlar və imkanlar" mövzusunda müzakirələr keçirilib.

AZƏRTAC-ın yaydığı geniş informasiyada göstərilir ki, tədbirdə Xəzər Universitetinin Siyasi elmlər və beynəlxalq əlaqələr departamentinin müdiri, fəlsəfə doktoru Muxtar Hacızadə çıxış edərək, ötən illər ərzində Azərbaycanın həyata keçirdiyi irimiqyaslı tədbirlərlə Avropanın mədəni həyatının önəmli hissəsinə çevrildiyini qeyd edib. O, ikitərəfli münasibətlərdə mövcud olan çətinliklərin Avropanın Azərbaycana qarşı tətbiq etdiyi ikili standartlarla daha da artdığını diqqətə çatdırıb və sualları cavablandırıb.

AZƏRTAC-ın informasiyası bir sıra KİV və xəbər portallarında dərc olunub. İnformasiyanın tam mətnini bu linkdən oxumaq olar:

*http://www.azerbaijannews.az/index.php?mod=3&id=90043*



## BƏŞƏRİ FACİƏ SƏNƏTKARLARIN GÖZÜ İLƏ

Naxçıvan Dövlət Universitetində İncəsənət fakültəsinin Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatı ilə birgə Xocalı soyqırımının 24-cü ildönümünə həsr edilmiş tədbir keçirilib. Tədbirdən öncə ali məktəbin Təsviri incəsənət müəllimliyi ixtisasının müəllim və tələbələrinin əl işlərindən ibarət, Xocalı soyqırımına həsr olunmuş rəsm sərgisinin açılışı olub. Rektor, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov əsrlər boyu xalqın başına gətirələn soyqırım və qətliamların, Azərbaycan xalqının öz azadlığı və ərazi bütövlüyü uğrunda apardığı şərəfli mübarizənin, qəhrəmanlıq tariximizin təsviri sənətdə inikas olunmasının əhəmiyyətindən danışıb.

Sonra sərgi ilə tanışlıq olub. Müəllimlərdən Fəridə Əhmədova və Şəmsiyyə Zalovanın, tələbələrdən Aynur İmanova, Zeynəb Məmmədova, Nuray Cavadova, Tünzalə Orucova, Güllü Məmmədova, Araz Həsənzadə və digərlərinin karikatura, plakat, kompozisiya janrlarında çəkdikləri əsərlərdə Vətən sevgisi, düşmənə nifrət və qisas hissi, müharibə və qətliama qarşı kəskin etiraz öz əksini tapmışdır.

Universitetin müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının məsul katibi Günay Məmmədova qeyd edib ki, bəşər tarixində misli görünməmiş dəhşətli faciə olan Xocalı soyqırımına bütün ziyalılar, sənət adamları biganə qala bilməmiş, görkəmli Azərbaycan bəstəkarları, tanınmış fransız bəstəkarı Pyer Tiloy bu mövzuda simfonik və vokal - instrumental musiqi janrlarında irihəcmli əsərlər yaratmışlar. Bəstəkar Kamal Əhmədovun 2013-cü ildə böyük simfonik orkestr üçün yazdığı "Xocalı" simfoniyası birhissəli olmasına baxmayaraq, silsiləli simfoniya janrının səciyyəvi xüsusiyyətlərini özündə əks etdirir.

Simfoniyanın müəllifi, Bəstəkarlıq kafedrasının müdiri, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Kamal Əhmədov əsərin yaranma tarixi, spesifik xüsusiyyətləri haqqında məlumat verib. Kompüter səsləndirilməsi, müxtəlif tarixi kadrların, mövzu ilə bağlı bədii filmlərdən seçilən fraqmentlərin müşayiəti ilə təqdim olunan simfoniya faciəni bütün dəhşətləri, xronikası ilə yanaşı, müstəqil Azərbaycanın hərbi qüdrətini, iradə əzmini, yenilməzliyini də özündə təcəssüm etdirir. Gərgin dramatik anlar yaşadan,vətənpərvərlik, düşmənə nifrət və intiqam hissləri üzərində köklənmiş simfoniya maraqla qarşılanıb.

**Mehriban Sultan,**
*NDU-nun Mətbuat şöbəsinin müdiri*



## MEMORANDUM OF UNDERSTANDING SIGNED WITH DONGDUK WOMEN'S UNIVERSITY

On February 22, Dr. Hassan Niknafs, President of Khazar University, met with Dr. Eunkyung Oh, Director of the Center for Eurasian and Turkic Studies at the Dongduk Women's University (South Korea).

Participants at the meeting on behalf of Khazar University also included Dr. Farda Asadov, Director of the Center for Eurasia and Middle East Studies; Dr. Elza Samadova, Dean of the School of Education; Raziya Isayeva, Development Director; Konul Kamilzade, Korean Language Instructor; and Turan Jafarova, Director of International Affairs Office. At the meeting, participants discussed promising areas for student exchange, research and faculty cooperation as well as ideas for projects on women's leadership.

A Memorandum of Understanding was signed between Khazar University and the Dongduk Women's University (South Korea) at the end of the meeting.



# “DÜNYA UNİVERSİTETLƏRİ REYTİNQİNİN TƏQDİMATI” MÖVZUSUSUNDA SEMİNAR

Fevralın 4-də Xəzər Universiteti Keyfiyyətin təminatı mərkəzinin direktoru Lyudmila Sotova Azərbaycan Dövlət İqtisad Universitetinin keçirdiyi “Dünya universitetləri reytinqinin təqdimatı” mövzusunda seminarda iştirak etdi.

Seminarda QS Reytinq Təşkilatının Şərqi Avropa və Mərkəzi Asiya regionu üzrə direktoru Zoya Zaytseva çıxış etdi. O, müxtəlif beynəlxalq reytinqlər haqqında ümumi məlumat verdikdən sonra QS reytinqinin metodologiyasından, reytinq cədvəlinin formalaşdırılmasının meyarlarından danışdı.

Eyni zamanda, Zoya Zaytseva bildirdi ki, Xəzər Universiteti 2015/16-cı ilin dünya universitetlərinin reytinq siyahısında 651-700, Qafqaz Universiteti və Bakı Dövlət Universiteti isə 701-cidən sonrakı pillələrdə yer almışdır.

Seminarın sonunda Z. Zaytseva iştirakçıları maraqlandıran suallara cavab verdi.

## “DÜNYA” JURNALININ NÖVBƏTİ NÖMRƏSİ ÇAP OLUNUB




**Xəzər Universiteti “Dünya” məktəbinin nəşri olan “Dünya” jurnalının 7-ci nömrəsi (noyabr-dekabr 2016-cı il) Xəzər Universitetinin mətbəəsində çapdan çıxmışdır.**

## “XƏZƏR”İN TƏLƏBƏSİNİN YAZISI SAYTA YERLƏŞDİRİLDİ

Fevralın 7-də *hafta.az* saytında Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsinin tələbəsi Nərmin Quliyevanın “Xroniki yorğunluq sindromu” adlı məqaləsi çap olunmuşdur.

Məqaləni bu link vasitəsilə oxumaq olar:
*http://hafta.az/index2.php?m=yazi&id=172222.*

## SİMPOZİUMUN MATERİALLARI ELEKTRON KİTAB ŞƏKLİNDƏ HAZIRLANDI

26-28 May 2014-cü ildə Xəzər Universiteti ilə Türkiyə Cümhuriyyətinin Erciyes Universitetinin birgə təşkilatçılığı ilə Xəzər Universitetində keçrilmiş **“21-ci əsrin pəncərəsindən mədəniyyət və kimlik”** adlı Beynəlxalq Simpoziumun materialları 2 clddə elektron kitab şəklində hazırlanmışdır. Materiallarla aşağıdakı linkdə tanış olmaq olar:
*http://www.khazar.org/az/xeber/2016/Simpoziumun-materiallari-elektron-kitab-seklinde-hazirlandi_7577.html*

## "QƏDİM MİSİR VƏ MESOPOTAMİYADA HƏYAT VƏ ÖLÜM FƏLSƏFƏLƏRİ" "ELM ÜÇBUCAĞI"NDA

Yanvarın 24-də İctimai TV-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının "Elm üçbucağı" proqramının növbəti verilişi oldu. Veriliş **"Qədim Misir və Mesopotamiyada həyat və ölüm fəlsəfələri"** mövzusuna həsr olunmuşdu.
Veriliş yanvarın 31-də tamaşaçıların xahişi ilə təkrar nümayış etdirilmişdir.

## ƏMƏKDAŞLARIMIZ RESPUBLİKA MÜŞAVİRƏSİNDƏ

Yanvarın 27-də Mədəniyyət və Turizm Nazirliyi Mətbuat Şurası ilə birlikdə M.F. Axundzadə adına Azırbaycan Milli Kitabxanasında Azərbaycan ərazisində dərc olunan mətbuat materiallarının və nəşr məhsullarının arxiv fondunun yaradılması işinin təkmilləşdirilməsinə dair qəzet, yurnal redaktorlarının, nəşriyat direktorlarının respublika müşavirəsini keçirmişdir. Mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin sədrliyi ilə keçən müşavirədə arxiv fondunun təkmilləşdirilməsi ilə əlaqədar müzakirələr aparılmış, təkliflər verilmişdir.

Müşavirədə "Xəzər Xəbər" jurnalının baş redaktor müavini, əməkdar jurnalist Əlirza Balayev, "Azərbaycan arxeologiyası" jurnalı redaksiya heyətinin üzvü, fəlsəfə doktoru Bəhlul İbrahimli iştirak etmişlər.

## 'INSTRUCTORS ARTICLE ACCEPTED FOR INTERNATIONAL CONFERENCE IN MOSCOW

Mehdi Zarei, an instructor in the Chemical and Petroleum Engineering Department at Khazar University, submitted a technical article which was accepted in the International Conference on Chemical and Biochemical Engineering (ICCBE) sponsored by International Institute of Engineers and Researchers (IIER). The conference will be held from March 2 to March 4, 2016 in Moscow, Russia.

The paper, entitled "A Novel Chemical Washing Method for Removal of Iron Sulfides in Structured Packing Columns," will be delivered on March 2, 2016, in the oral presentation section among numerous papers from scientists and researchers across the globe. The article focuses on an investigation of a new method for Removal of Iron Sulfides in one of the columns in Shiraz Refinery.

Further information about the conference can be found at the following link:

*http://theiier.org/Conference/Russia/1/ICCBE/*

## "ELMİ-TƏDQİQAT MƏQALƏLƏRİNİN DƏRC EDİLMƏSİ" MÖVZUSUNDA SEMİNAR

Fevralın 15-də Xəzər Universiteti Elektronika, telekommunikasiya və radio mühəndisliyi departamentində elmi-tədqiqat məqalələrinin dərc edilməsi ilə əlaqədar seminar təşkil edildi. Kimya mühəndisliyi departamentinin müəllimi Dr. Jestin Mandumpal tətbiqi elmlər sahəsində yazıların müxtəlif aspektləri haqqında məlumat verdi.

Neft mühəndisliyi departamentinin müdiri dosent Qəşəm Zeynalov, Fizika departamentinin müəllimi Dr. Nosratollah Cəfəri, eləcə də universitetin bakalavr və magistr tələbələri seminarda iştirak edirdilər.

Elektronika, telekommunikasiya və radio mühəndisliyi departamentinin müdiri Dr. Nuru Səfərov tərəfindən təşkil olunan seminar universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafsın təşəbbüsü ilə fevralın 15-20-də keçiriləcək seminarlar silsiləsinin birincisi idi.

Bu seminarların keçirilməsindən məqsəd bakalavr və magistr tələbələri, tam ştat və yarımştat işçi heyətini tədqiqata və elmi məqalələr yazmağa həvəsləndirməkdir.



# "XƏZƏR"İN DOKTORANTININ MƏQALƏLƏRİ NÜFUZLU JURNALLARDA

Xəzər Universitetinin doktorantı Mirdamad Yosofi Sadatın *Globalization and International Women's Movement* ("Qloballaşma və beynəlxalq qadın hərəkatı") adlı məqaləsi ***Journal of Current Research in Science*** ((ISSN 2322-5009) CODEN (USA): JCRSDJ 2015, Vol. 3, No. 6, pp: 39-44) adlı jurnalda dərc olunmuşdur. Məqalədə Səudiyyə Ərəbistanı kimi mühafizəkar cəmiyyətlərdə qadın hərəkatı və feminizmin formalaşmasında yerli və qlobal faktorların qarşılıqlı əlaqəsi nəzərdən keçirilir.

Mirdamad Yosofi Sadatın digər məqaləsi - *The role of the family in the socialaization process and adjusting gender-based differences* ("İctimailəşmə prosesində ailənin rolu və gender əsaslı fərqlərin tənzimlənməsi") adlı məqaləsi Ukraynanın "Гілея" jurnalının 2015-ci il 103-cü buraxılışında çap olunmuşdur. Məqalədə müəllif ictimailəşmə prosesində ailənin rolu və gender fərqlərindən bəhs etməklə yanaşı, Şərqdə və Qərbdə mövcud olmuş müxtəlif feminist yanaşmaları araşdırır və onların bir sıra mühüm fərqlərini təqdim edir.

Doktorantın *The impact of transnational feminism on women's movement after 1979 Revolution in Iran* ("1979-cu il inqilabından sonra transmilli feminizmin İran qadınlar hərəkatına təsiri") adlı məqaləsi isə nüfuzlu beynəlxalq jurnalda – ***International Journal of Life Sciences and Pharma Research*** (*ISI Thomson Reuters, Coverage: Emerging Sources Citation Index, Web of Science)* jurnalının 2016-cı il 2-ci sayında çapa hazırlanır.





## AVRASİYA VƏ ORTA ŞƏRQ ARAŞDIRMALARI MƏRKƏZİNDƏ METODOLOJİ SEMİNAR KEÇİRİLDİ

Fevralın 18-də Xəzər Universitetinin Avrasiya və Orta Şərq Araşdırmaları Mərkəzi (AOŞAM) vətəndaş cəmiyyəti araşdırmaları üzrə elmi-metodoloji seminar keçirdi. Tədqiqatçılar vətəndaş cəmiyyətinin fəaliyyət sərhədləri, vətəndaş cəmiyyəti qurumlarının fəaliyyət növlərinin və təşkilat formalarının hüquqi çərçivələri məsələlərini müzakirə etmişlər. Müzakirələrdə AOŞAM Direktoru Fərda Əsədov, tədqiqatçılardan Elvin Yusifli, Murad Nəsibov, Bəxtiyar Aslanov və Ariz Hüseynov mövzuya dair mülahizələrini bildirmişlər.

## ORTA ŞƏRQDƏ QEYRİ-SABİT VƏZİYYƏTƏ DAİR DƏYİRMİ MASA

Fevralın 18-də . Bakı Dövlət Universitetinin Heydər Əliyev Mərkəzində Orta Şərqdə müşahidə olunan qeyri-sabit vəziyyətə həsr edilmiş dəyirmi masa keçirilmişdir. Müzakirələrdə Bakı Dövlət Universitetinin və Azərbaycan Dillər Universitetinin siyasi elm, beynəlxalq münasibətlər və Orta Şərq regionu üzrə ixtisaslaşan alimləri, Xəzər Universitetinin Siyasi elm və beynəlxalq münasibətlər departamentinin müdiri, fəlsəfə doktoru Muxtar Hacızadə iştirak etmişlər.

Müzakirələrdən sonra Yerusəlim Yəhudi Universitetinin professoru Elie Podeh "Orta Şərqdə xaos və qeyri-sabitlik: Yerusəlim, Qahirə, Ər-Riyad və Vaşinqtondan baxış" adlı mühazirə ilə çıxış etmişdir.

## ELMİ MƏQALƏLƏRİN YAZILMASI QAYDALARINA HƏSR OLUNMUŞ SEMİNAR

Fevralın 17-də Xəzər Universitetində Biologiya departamentinin müdiri İradə Xəlilovanın və Coğrafiya departamentinin müdiri Rövşən Abbasovun təşəbbüsü və iştirakı ilə elmi məqalələrin yazılması, qaydaları, şərtləri və s. həsr olunmuş seminar keçirildi.

Seminarda, həmçinin, bu mövzunun müntəzəm olaraq davam etməsi üçün hələlik ayda bir dəfə "Journal Club"-ların keçirilməsi qərara alındı.

Qeyd olundu ki, ixtisasından asılı olmayaraq, elmi məqalə yaradıcılığı ilə məşğul olan və olmaq istəyən hər bir şəxs seminarda iştirak edə bilər. Xüsusilə, magistr və PhD tələbələrin bu seminarlarda aktiv iştirak etməsi tövsiyə edilir.

# THE ENGLISH LANGUAGE FOR GLOBAL COMMUNICATION: PERSPECTIVE OF YOUTH



VALİDA KARİMOVA

*PhD student in Linguistics,*
*School of Humanities and Social Sciences*
*(Dean's office- research assistant),*
*Khazar University, Baku, Azerbaijan*

**ABSTRACT**

The objective purpose of this article is to investigate language as the most important and central tool for communication. According to the perspective of youth on global communication, the usage of foreign languages is seen as fruitful for the best possible future and is especially widespread in modern life. Youth with different approaches, from different social groups, and with different living conditions tend to use the English language because English is currently a lingua franca. In order to achieve educational goals and general knowledge (or understanding), language is a guarantee for a better future, so almost all people learn speak foreign languages. There is no geographical or social distance in learning a foreign language among speakers. Language is a great and complex system which maintains its value and deserves respect.

***Keywords: youth perspective, English language, foreign language learning, philosophy of language, globalization***

The study of any foreign language cannot be equated with the study of history or math because it involves adapting to certain customs and traditions of different social groups as well. Language is defined as a vocal system which is used by human beings to communicate with each other. Thus language is more than communication; it's a social action and functions to express thoughts. In most cases, language is a dominant leader and ruler of the dependent. People are also dependent on it (Finnegan, 1999).

We compared our findings with the above author's comments, and we suggest in agreement with Finnegan that language without humans and humans without language are nothing. Language is dependent on humans, but cannot be equated to

them. It's a dominant force and a leader over people and is also processed by people.

Language depends on place. Moreover, in each place it may take on various structures and different usages. Different social groups speak even the same language differently. For example, communicative language and political speech language are mostly different from each other. Foreign language and its structure include a wide spectrum. Learning a foreign language and really making it work will make us rich. It's true that language is a narrow band because for each sphere it has its own words in its vocabulary, its own structure, and its own environment or sphere.

What causes people to speak in other languages? Changing social and intellectual needs may affect the way people speak in other languages. Even when people change their living circumstances, in mixed surroundings they speak the foreign language which the environment demands.

For global communication, using an international language is the best way. Thus nowadays for most global communication the English language is widespread. The English language is mostly used among younger people as a method of communication. English language is divided into 2 parts: American English and British English. English has positive and negative sides; in fact, every language has its own benefits and drawbacks. The majority of the learners of the English language suffers from English grammar itself. They think that knowing only words or vocabulary is enough. However, they think in a wrong way, because tense forms, expressions, etc. are essential. The value of the language decreases when one does not know its grammar. Some young people even think that some grammar rules are completely unnecessary for speaking. This attitude is proof of their distaste for grammar. The majority of phrasal verbs and idioms are not convenient for them to learn. Most of them think that while they are speaking they will forget these phrasal verbs and so they do not even try to use them. Those who understand that these are a colorful side of the English language use them in writing and speaking.

In the English language, especially in its American version, some phonetical changes and lexical innovations appeared and the language's lexical structure was enriched. It's a fact that, in the countries where English is being used, economical and cultural developments occur first as a result of relationships with other countries, also raising indicators such as scientific-cultural, economic, and public/political developments with the help of the English language. Everything depends on humans. The creators and the carriers of the language are humans. French linguist Jan Van Die's idea would be appropriate to mention here. He claims that "... for creating a language human's thinking should be enhanced..." (J.V. Die, Language, p.23). However, the author was not satisfied with this provision. According to that quote, supposedly, the first human's thinking developed after humans created a language. The author argues that both language and thinking were developed and formed together in a parallel vein. The author thinks that there is no practical and scientific explanation for the creation of language and thought. Language is not abstract, it is systematic. It is formed systematically and acts phonetically, grammatically and with lexical structure.

From the perspective of youth in the Modern Period, the English language has turned into a register used for political talks or negotiations, and even into a business language. Scientific and medical researchers also use English. According to international agreements, even on airplanes, workers must know English. The English language has become an official language in more than 75 countries all around the world. It is commonly known that a few hundred years ago as a result of invasions of Britain, the English language became a language. In Old English, there used to be many words borrowed from the French language. For example: "damage," "marriage," "ambulance," "jury," "parliament," "justice," etc. (4) It is difficult to understand Old English. Writings that were written in Old English can only be read by experts. Young people do not read Old English materials but they use some words without knowing that they belong to the English period, the period in which the "Beowulf" poem was written. The Middle English language looks like Modern English, so it is not so difficult to understand. The first writer in the English language, according to specialists, was Geoffrey Chaucer and his famous work was a collection of stories in a frame story, "The Canterbury Tales", which was written in 1387-1400. In the period following, Middle English developed and turned

into Modern English.

To conclude this article, young people understand that it is important to learn foreign languages for their futures prospects. Knowledge of foreign languages means knowledge of other countries or their cultures, identities, histories, etc. Notwithstanding all difficulties and barriers, all negative and positive sides, whether with an attitude of hate or love or under compulsion, young people learn and develop their foreign language skills. Even for global communication, foreign languages are essential. Languages are a main factor in nation building. When a language is in decline, the nation is in decline as well. We must respect other languages. If we do not respect other languages, we should not expect mutual respect for our mother tongue.

**Acknowledgements**

I would like to thank for my instructor Jamala Mammadova (PhD student in Linguistics \ Belgium, Brussels; instructor at Khazar University) for her feedback and help in clarifying the points in this article.

**REFERENCES:**

*http://mtpr.net/post/importance-learning-foreign-languages*

1. Dr. Kim, A. (October 25, 2013). *The Importance of Learning Foreign Languages*. Retrieved ON 07.01.2016, from

2. Finnegan.E. (1999). *Language: its structure and use*. 3rd edition. Orlando: Harcourt Brace College Publishers. Retrieved ON 18.12.2015.

3. Retrieved ON 03.12.2015 *http://edu.gov.az/en/page/134*

4. *The English Language, Borrowed Words from French*. Retrieved ON 12.10.2015, from *http://www.krysstal.com/display_borrowlang.php?lang=french*

5. 2009-2013 News.az, Learning a Foreign Language. Retrieved ON 01.12.2015, from *http://www.studymode.com/essays/Learning-a-Foreign-Language-Essay-1680654.html*

6. Shafiyeva,U., & Kennedy,S. (2010). *English as a foreign language in Azerbaijan: English teaching in the post-Soviet era*. Retrieved ON 05.12.2015, from *http://journals.cambridge.org/action/displayAbstract?fromPage=online&aid=7284020*





TORAH KACHUR

## SCIENTISTS REVIVE TARDIGRADES FROZEN FOR MORE THAN 30 YEARS

CBC News
Feb 18, 2016

It's already been established that they can survive deep in the ocean and in outer space. These tiny microanimals can live pretty much everywhere. Their favourite spot is on moss, which they feed on.

But what makes them truly amazing is their survivability. They've been experimented on in space, and found in a huge range of environments on Earth, from tropical rainforests to Antarctica to the deep sea. They can survive extreme heat, extreme cold, and extreme pressure.

It's been previously established that tardigrades can survive being frozen — but now we know they can survive being frozen for an incredibly long time. Japanese researchers successfully thawed some water bears from moss frozen in Antarctica in 1983 — which means they survived being frozen for more than 30 years.

Two adult water bears survived the thawing — although it took about nine days until they were fully functional. So did several eggs which were successfully hatched.

*http://www.cbc.ca/news/technology/scientists-revive-tardigrades-frozen-for-more-than-30-years-1.3453522*

TIME

# SCIENTISTS CONFIRM EINSTEIN'S THEORY OF GRAVITATIONAL WAVES

FEB. 11, 2016



JUSTIN WORLAND

Scientists have confirmed Einstein's theory of gravitational waves more than a century after the concept was first proposed, a dramatic discovery that could change the practice of astronomy, researchers announced Thursday.

In September, laser facilities in Washington state and Louisiana both recorded the same distortion in space—measured as a short audible chirp—coinciding with the collision of two black holes a billion light years away. The finding suggests that energy from any movement travels across space and time in waves, leaving slight distortions across anything in its path.

The project, funded by the National Science Foundation at the cost of more than $1 billion, has been decades in the making as more than a 1,000 scientists worked on a collaboration known as LIGO, short for the Laser Interferometer Gravitational-wave Observatory. The two U.S. facilities each have two L-shaped vacuum chamber tubes measuring 4 km (2.5 miles) containing lasers and mirrors. Scientists who designed the devices hoped that the elaborate construction could detect a change in the length of the tube caused by gravitational waves.

That's exactly what happened in September when two black holes—one the size of 36 suns and the other the size of 29—collided a billion lightyears away. And even that only registered as a tiny chirp.

"We have detected gravitational waves," said David Reitze, LIGO executive director, at a press conference Thursday. "We did it!"

The discovery also opens the doors to a new era of astronomy research using the measurement of waves. Some scientists suggested the discovery could allow researchers to study what happened during the Big Bang nearly 14 billion years ago, as waves from that moment still travel across space and time.

"It's been a very long road but this is just the beginning," said LIGO spokesperson Gabriela González at a press conference Thursday. "Now that we know binary black holes are out there, we'll begin listening to the universe."

*http://time.com/4217353/einstein-gravitational-waves/*

ELVİN TEYMURZADƏ



Bakı Dövlət Universiteti Hüquq fakültəsinin magistrantı


# CİNAYƏT PROSESİNİ HƏYATA KEÇİRƏN ORQANIN PROSESSUAL HƏRƏKƏTLƏRİ VƏ QƏRARLARI ÜZƏRİNDƏ MƏHKƏMƏ NƏZARƏTİNİN PRAKTİKİ XÜSUSİYYƏTLƏRİ


**Xülasə**

Cinayət prosesində prosessual qərarlar və onların realizə formaları, müvafiq olaraq onlardan şikayət verilmə qaydaları tənzimlənən mühüm normalardan biri kimi məhz məhkəmə nəzarətidir. Bu məqalədə prosessual qərarlardan şikayət vermək hüququ olan subyektlərin kateqoriyası araşdırılmışdır, göstərilən hal üzrə qanunvericilikdə olan tam tənzimlənməli prosedurlara münasibət bildirilmişdir.



**Açar sözlər:** *prosessual qərar, prosessual hərəkət, cinayət işi, cinayət təqibi ilə bağlı digər material, zərərçəkmiş şəxs, cinayət hadisəsi, ittiham tərəfi, müdafiə tərəfi, cinayət prosesində iştirak edən digər şəxslər, məhkəmə nəzarəti, beynəlxalq qanunvericilik.*



**Summary**

Forms of procedural decisions and their implementation in criminal proceedings, in accordance with the norms of their appeal as one of the most important rules of the judicial review regulated. In this article, the procedural right to appeal decisions of the subjects studied in the category, which is the case for the legislation was on the regulated procedures.



**Keywords:** *The decision procedure, procedure, criminal investigation, prosecution and other material, zərərcəkcis person, the crime, the prosecution, the defense, other persons involved in criminal proceedings, judicial supervision and international law.*


Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ vardır. Hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməlidir. (1, s.20) Cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətləri və yaxud qərarları üzərində məhkəmə nəzarəti şəxsin hüquq və azadlıqlarının mümkün ola biləcək pozulması faktını müəyyənləşdirir ki, bu da digər hüquqi mexanizmlərin fəaliyyət göstərməsi üçün əsas olur. Qeyd olunan hal ehtimal oluna biləcək pozuntu hallarının tənzimlənməsi və qarşısının alınmasında mühüm rol oynayır.

Cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətləri və qərarları üzərində məhkəmə nəzarəti fəaliyyəti Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 449-454-cü maddələri ilə tənzimlənir. İlk növbədə, hansı subyektlərin şikayət etmək hüququnu aydınlaşdırmaq lazımdır.(3, s.1230) AR Cinayət-Prosessual Məcəlləsinin 84.3 və 84.8-ci maddələrinin tələbləri baxımından yuxarıda

qeyd olunan siyahı üzrə müəyyən olunan subyektləri natamam hesab etmək olar. Həmin maddələr aşağıdakıları müəyyən edir:

- Cinayət işi üzrə məhkəməyədək icraat zamanı bu Məcəllənin müddəalarının icrası və tətbiqinə həmin iş üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror məsuliyyət daşıyır. (m. 84.3).

- İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror yuxarı prokurorun göstərişlərini yerinə yetirməlidir. Təqsirləndirilən şəxs qismində cəlb edilməsi, qətimkan tədbirinin seçilməsi və ya dəyişdirilməsi, cinayətin tövsifi, ittihamın həcmi, işin icraatına xitam verilməsi və ya məhkəməyə göndərilməsinə dair yuxarı prokurorun göstərişləri ilə razı olmayan ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror öz əsaslandırılmış etirazını yuxarı prokurora göndərməyə haqlıdır. Bu halda yuxarı prokuror onun dəlilləri ilə razılaşır və öz yazılı göstərişlərini geri götürür və ya onun dəlilləri ilə razılaşmayaraq cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi digər prokurora tapşırır. Prokurorun yazılı göstərişlərindən edilən etiraz bu göstərişlərin icrasını dayandırmır. (m. 84.8).

Qeyd olunanları sistematik təhlil etdikdə müəyyən etmək olur ki, cinayət işi üzrə məhkəməyədək icraatda qanunvericiliyin müddəalarına riayət olunmasına, təhqiqat, istintaq orqanları tərəfindən qəbul olunan və həyata keçirilən prosessual qərarların və hərəkətlərin qanunamüvafiqliyinə prokuror nəzarətinin olması səbəbindən qeyd olunan sihayını aşağıdakı kimi təklif edirik:

1) Tutulmanı və ya tutulan şəxsin həbs yerlərində saxlanılmasını həyata keçirən şəxs;

2) Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən şəxs;

3) İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror;

4) Yuxarı prokuror.

Bu məcəllənin 449.2-ci maddəsində şikayət vermək hüququ tanınan şəxslər öz əksini tapmışdır. Bu şəxslərə:

- Təqsirləndirilən (şübhəli) şəxs və onun müdafiəçisi;

- Zərər çəkmiş şəxs və onun qanuni nümayəndəsi;

- Qərarın qəbul edilməsi və ya hərəkətin aparılması nəticəsində hüquq və azadlıqları pozulan digər şəxslər aiddir.

Hesab edirik ki, "Qərarın qəbul edilməsi və ya hərəkətin aparılması nəticəsində hüquq və azadlıqları pozulan digər şəxslər"in siyahısı AR Cinayət-Prosessual Məcəlləsində dəqiq verilməmişdir. Bu məsələnin bu və digər qaranlıq tərəflərinə aydınlıq gətirmək məqsədilə Azərbaycan Respublikasının Konstitusiyası Məhkəməsinin Plenumu 2 qərar qəbul etmişdir. "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 449.2.3-cü maddəsinin şərh edilməsinə dair" 05 avqust 2009-cu il tarixli Konstitusiya Məhkəməsinin Plenumunun qərarı ilə "qərarın qəbul edilməsi və ya hərəkətin aparılması nəticəsində hüquq və azadlıqları pozulan digər şəxslər"ə kimlərin aid olduğu müəyyənləşdirildi. Həmin qərarda qeyd edilirdi:

- Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 449.2.3-cü maddəsinin "qərarın qəbul edilməsi və ya hərəkətin aparılması nəticəsində hüquq və azadlıqları pozulan digər şəxslər" müddəası cinayət prosesinin digər iştirakçılarına aid olduğuna görə cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərindən və ya qərarlarından şahidin də şikayət vermək hüququnu istisna etmir. Lakin cinayət prosesinin digər iştirakçıları, o cümlədən şahidlər cinayət təqibini həyata keçirən orqanın vəzifəli şəxslərinin qərarlarından və hərəkətlərindən (hərəkətsizliyindən) şikayət vermək hüququna o halda malikdirlər ki, həyata keçirilmiş hərəkətlər və qəbul olunmuş qərarlar onların hüquq və qanuni maraqlarına toxunmuş olsun, Azərbaycan Respublikasının Konstitusiyası ilə təsbit olunmuş hüquqlarına və azadlıqlarına zərər yetirə və yaxud ədalət mühakiməsinə müraciətini (əlçatanlığını) çətinləşdirə bilsin. (5, s.155)

Burdan belə nəticə çıxarmaq olar ki, cinayət prosesinin digər iştirakçılarının da cinayət prosesini həyata keçirən orqanın prosessual qərarlarından və yaxud hərəkətlərindən hüquqları pozula bilər. Bu digər iştirakçılara Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 7.0.18-ci və 7.0.29-cu maddələrində qeyd olunmuş "cinayət prosesinin iştirakçıları" və "cinayət prosesində iştirak edən digər şəxslər"in anlayışlarında əks olunmuş şəxslər əgər qeyd edilən hərəkət və qərarlar nəticəsində hüquq və azadlıqlarının pozulduqlarını güman edirsə, məhkəmə nəzarəti qaydasında şikayət vermək hüququna malikdir. Bu şəxslərə xüsusi ittihamçı, mülki iddiaçı, onların qanuni nümayəndələri və nümayəndələri, şübhəli şəxs, onların qanuni nümayəndələri, müdafiəçi, mülki cavabdeh, onun qanuni nümayəndəsi və ya nümayəndəsi, hal şahidi, şahid, mütəxəssis, ekspert, məhkəmə iclasının katibi və tərcüməçi daxildir.

"Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 39.1.5 və 41.2-ci maddələrinin şərh edilməsinə dair" 17 iyun 2010-cu il tarixli

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin Plenumunun qərarı ilə şikayət vermək hüququ olan şəxslərin dairəsi daha da genişləndi. Həmin qərarda qeyd olunur: "... Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 39.1.5-ci maddəsinə əsasən cinayət təqibinə (və ya cinayət işinə) xitam verilməsi haqqında qərardan ölmüş şəxsin yaxın qohumlarının və müdafiəçisinin şikayət vermək hüququ məhkəmə nəzarəti qaydasında həyata keçirilə bilər". Dövlətimiz ölmüş şəxsin yaxın qohumları və müdafiəçisi tərəfindən məhkəmə nəzarəti qaydasında şikayət vermək hüququnu tanımaqla cinayət prosesini həyata keçirən orqan tərəfindən qərarın qəbul edilməsi və ya hərəkətin aparılması nəticəsində hüquq və azadlıqları pozulan digər şəxslərin dairəsini daha da konkretləşdirdi.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 449.3-cü maddəsi ilə şikayət veriləsi prosessual hərəkət və qərarların siyahısı müəyyən edilmişdir. Bu cür hərəkət və qərarlara:

- Cinayət haqqında ərizənin qəbul edilməsindən imtina edilməsi;
- Tutma və həbsdə saxlanılması;
- Tutulmuş və ya həbs edilmiş şəxsin hüquqlarının pozulması;
- Həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi;
- Həbsdə saxlanılan şəxsə işgəncə verilməsi və ya digər amansız rəftar edilməsi;
- Cinayət işinin başlanmasının rədd edilməsi, cinayət işi üzrə icraatın dayandırılması və ya ona xitam verilməsi;
- Məhkəmənin qərarı olmadan istintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi;
- Təqsirləndirilən (şübhəli) şəxsin müdafiəçisinin cinayət prosesindən kənarlaşdırılması aid edilmişdir.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi 453.10-cu maddəsinə əsasən həbs qətimkan tədbiri ilə əlaqədar apellyasiya instansiyası məhkəməsi tərəfindən hakimin qanunliyi və əsaslılığı artıq yoxlanılmış qərarından şikayətə və ya protestə təkrarən baxılmasına yol verilmir. Azadlıq hüququna Azərbaycan Konstitusiyasının, "İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının müddəaları kontekstindən baxdıqda qeyd olunan normanın ziddiyyətli olduğu aşkardır. Azərbaycan Respublikasının Konstitusiyasının 26-ci maddəsinə görə hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır. Bununla yanaşı, həmin maddəyə görə dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir. Konstitusiyamızın 60-ci maddəsinə görə isə hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir. "İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının 13-cü maddəsinə görə şəxsin səmərəli hüquqi müdafiə vasitələri hüququ vardır. Həmin maddədə qeyd edilmişdir:

Bu Konvensiyada təsbit olunmuş hüquq və azadlıqları pozulan hər kəs, hətta bu pozulma rəsmi fəaliyyət göstərən şəxslər tərəfindən törədildikdə belə, dövlət orqanları qarşısında səmərəli hüquqi müdafiə vasitələrinə malikdir. (4, s. 9)

Bundan əlavə olaraq Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 35.1-ci maddəsi ilə bu məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada cinayət prosesi iştirakçısının cinayət işinin və ya cinayət təqibi ilə bağlı digər materialın baxılmasında məhkəmənin qəbul etdiyi prosessual qərar və hərəkətlərdən yuxarı məhkəməyə şikayət etmək hüququ vardır.

**Ədəbiyyat:**

1. Cəfərov İ. Azərbaycan Respublikasının Konstitusiyasının şərhi. Qanun, 2009, s. 723

2. e-qanun.az

3.Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin Kommentariyası. C.Mövsümov, Bakı 2011, 1347 s.

4. İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyası. Bakı, 2013. 26 s.

5. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun cinayət, cinayət-prosessual və inzibati xətalar qanunvericiliyi sahəsinə dair qərarları. Bakı 2015, 510 s.

ELAN • ELAN • ELAN • ELAN • ELAN

**Xəzər Universiteti Beynəlxalq Tələblər üçün Qəbul və Təqaüd Proqramı elan edir.**

Tədris proqramları dörd fakültədə bakalavriat, magistratura və doktorantura səviyyələrində təklif olunur.

**Təqaüd proqramı dünyanın bütün ölkələrindən olan tələbələrə açıqdır və hər ölkəyə təhsil haqqını tam ödəyən iki təqaüd imkanı verir.**

2016-cı il aprelin 15-i müraciət üçün son tarixdir.

Beynəlxalq Qəbul və Təqaüd Proqramı haqqında bu linkdən daha ətraflı məlumat almaq olar:

*http://www.khazar.org/s7938/How-to-Apply-new/en*

**Əsası 1991-ci ildə qoyulan Xəzər Universiteti Azərbaycanda humanitar və sosial elmlər, mühəndislik və tətbiqi elmlər, iqtisadiyyat, menecment və biznesin idarə edilməsi və təhsil kimi sahələrdə ixtisaslar təklif edən ayrı-ayrı müstəqil fakültələrdən ibarət ilk özəl universitetdir.**

Xəzər Universitetinin əsas məqsədi hər fakültədə universitetin təklif etdiyi bütün ixtisaslar üzrə hər bir tələbəyə yüksək keyfiyyətli təhsil verməkdir.

ANNOUNCED • ELAN

**Khazar University International Admission and Scholarship Program: APPLY NOW!**

Study programs are offered in all four schools of the university at both undergraduate (bachelor) and graduate (master and PhD) levels.

**The scholarship program targets nationals of all countries around the world and offers two merit-based full-tuition fee covered scholarships for each country.**

Deadline: APRIL 15, 2016.

For more information about international admission and the scholarship program, please visit:

*http://www.khazar.org/s7938/How-to-Apply-new/en*

**Established in 1991, Khazar is the first private university in Azerbaijan. It is composed of multiple independent schools, which offer a wide scope of diverse majors in Arts, Humanities and Social Sciences, Engineering and Applied Sciences, Economics, Management and Business Administration, and Education.**

The main aim of Khazar University is to provide high quality education for each student in all fields and all levels of study offered by the university.

ANNOUNCED • ANNOUNCED • ANNOUNCED

**ALLAH RƏHMƏT ELƏSİN!**

Xəzər Universitetinin kollektivi Jurnalistika departamentinin koordinatoru Cabir Məmmədliyə qardaşı

**Cəlil Məmmədovun**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!



# VAQİF MƏMMƏDOV

Ədəbi ictimaiyyətə ağır itki üz vermişdir. Görkəmli şair, publisist, tarixçi alim, "Xəzər Xəbər" jurnalının Naxçıvan Dövlət Universitetində bürosunun rəhbəri Vaqif Məmmədov 2016-cı il fevralın 6-da vəfat etmişdir.

Vaqif Məmmədov 1948-ci il iyun ayının 28-də Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Sədərək kəndində anadan olub. Naxçıvan şəhər pedaqoji məktəbini (1968) və Naxçıvan Dövlət Universitetinin tarix fakültəsini (1975) bitirmişdi. 2001-ci ildə dissertasiya müdafiə edib, tarix elmləri namizədi elmi dərəcəsi almışdı. Uzun müddət pedaqoji fəaliyyətlə məşğul olmuşdu. Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif edilmişdi. Naxçıvan Dövlət Universitetinin Jurnalistika və dünya ədəbiyyatı kafedrasının dosenti, universitetin "Elmi əsərlər" jurnalının redaktoru, "Qeyrət" nəşriyyatının direktoru idi.

1970-ci ildən bədii yazıları mətbuatda çap olunurdu. Qırx beş illik zəngin və dəyərli sənət yolu keçən Vaqif Məmmədovun yaradıcılığında əsas yeri poeziya tuturdu. Müdriklik xəzinəsi olan folklorumuzun və çoxəsrlik yazılı ədəbiyyatımızın möhtəşəm ənənələrindən daima yaradıcılıqla bəhrələnən şair belə br zəngin ədəbi zəmin üzərində pərvəriş tapmış, şeirdən şeirə püxtələşərək, çağdaş Azərbaycan ədəbiyyatında öz səsi, öz nəfəsi olan, orijinal duyum və deyim tərzi ilə seçilən qələm sahibi kimi tanınmışdır.

Azərbaycan Jurnalistlər Birliyinin (1992), Azərbaycan Yazıçılar Birliyinin (1995), İLESAM-ın (Türkiyə Elm və Ədəbiyyat Əsəri Sahibləri Məslək Birliyi) və Avrasiya Yazarlar Birliyinin (2010) üzvü olan Vaqif Məmmədov 35-dən artıq şeir və elmi-publisistik kitabın müəllifidir. Şeirləri ingilis, fransız, türk, rus, ərəb, fars, özbək və s. dillərə tərcümə edilərək, ABŞ, Almaniya, Yunanıstan kimi ölkələr də daxil olmaqla dünyanın 12 ölkəsində çap olunub.

Vaqif Məmmədov dünyanın müxtəlif ölkələrində keçirilən beynəlxalq tədbirlərin fəal iştirakçısı idi. Ölkəmizdə və xaricdə bir sıra nüfuzlu mükafat və təltiflərə layiq görülmüşdü. O, Əməkdar mədəniyyət işçisi, "Qızıl qələm" mükafatı laureatı idi.

Vaqif Məmmədov muxtar respublikanın ictimai həyatında fəal iştirak edirdi. 1996-1998-ci illərdə dövlət qulluğunda çalışmış, 1995-2000-ci illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı olmuşdu.

"Xəzər Xəbər" jurnalının Naxçıvan Dövlət Universitetində, həmçinin Muxtar Respublikanın humanitar təsisatlarında yayılması və təbliği, jurnal vasitəsilə Muxtar Respublikada Xəzər Universitetinin geniş və ətraflı təqdim olunmasında Vaqif Məmmədov misilsiz xidmət göstərmişdir. Şeirləri və publisistik məqalələri "Xəzər Xəbər"də dərc olunurdu.

Vaqif Məmmədov sədaqətli, nəcib, xeyirxah, təvazökar və ləyaqətli bir insan idi. Əziz xatirəsi sənət dostlarının və onu tanıyanların qəlbində daim yaşayacaqdır.

Allah rəhmət eləsin!

*"Xəzər Xəbər"*



**Validyenlərin və şagirdlərin nəzərinə!**

Xəzər Universitetinin Dünya məktəbi 2016-2017-ci tədris ilində I-XI siniflərə şagird qəbulu elan edir:

Qəbul müsabiqə yolu ilə həyata keçirilir.

Təhsil 3 dildə (Azərbaycan, rus, ingilis) aparılır.

Azərbaycan və rus bölmələrində ingilis dili ikinci dil kimi tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman, çin dilləri də öyrədilir.

Məktəbdə təcrübəli pedaqoqlar, o cümlədən xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar. Burada savadla yanaşı, tərbiyə də mühüm yer tutur.

Dünya məktəbi beynəlxalq statuslu məktəbdir. O, Beynəlxalq Bakalavr Təşkilatının (İnternational Baccalaureate Orqanization – IBO) üzvüdür. Məktəbdə IB Diplom Proqramı fəaliyyət göstərir.

# Dünya məktəbi

X sinif şagirdləri tam orta təhsillə yanaşı, öz istəkləri ilə Beynəlxalq Bakalavr Təşkilatının Diplom Proqramında təhsil ala bilərlər. Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər.

Diplom proqramında təlim ingilis dilindədir. Təhsil müddəti iki ildir.

Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar.

# Məktəbəqədər hazırlıq

2016-2017 –cı il üçün hazırlığa uşaq qəbulu davam edir.

Hazırlıqda 4-5, 5-6 yaşlı uşaqlar üçün Azərbaycan, ingilis və rus dillərində qruplar təşkil olunub. Bütün qruplarda əlavə iki dil (Azərbaycan, ingilis, rus) tədris edilir.

Gündəlik dərs proqramından əlavə, Şahmat, Kompüter, Psixologiya, Rəsm-əmək, Rəqs, Dram və Musiqi dərsləri keçirilir.

Ünvan: Bakı, Əcəmi Naxçıvani 9

Dünya məktəbi
Tel.: (+99412) 563 59 40 /47/48
Mob.: (+99470) 844 08 88
E-mail: info@dunyaschool.az

Məktəbəqədər hazırlıq
Tel.: (+99412) 563 59 43/ 45
Mob.: (+99470) 560 15 18
E-mail: bagca@dunyaschool.az

http: //dunyaschool.az



# XƏZƏR UNİVERSİTETİ

Xaricdə ən çox tanınan,
xaricə ən çox tələbə göndərən,
xaricdən oxumağa tələbələrin ən çox gəldiyi,
xarici müəllimlərin ən çox işlədiyi ali məktəbdir.
siteti Azərbaycanda yeganə universitetdir ki, onun tədris siyasəti və
Xəzər Univer diplomları Avropa və Amerikanın universitetləri tərəfindən tanınır.

Xəzər Universiteti dünyada ali məktəblərin reytinqinin müəyyənləşdirilməsi sahəsində nüfuzlu təşkilatların reytinq cədvəlində Azərbaycan ali məktəbləri arasında həmişə birinci olmuşdur.

QS (World University Rankings) təşkilatının 2015-ci il sentyabrın 15-də elan etdiyi reytinq cədvəlinə əsasən Xəzər Universiteti dünyanın ən yaxşı 700 üniversiteti arasında yer almışdır.

2015-ci il oktyabrın 21-də QS (World University Rankings) təşkilatı 2015/16-cı tədris ili üçün inkişaf etməkdə olan Avropa və Mərkəzi Asiya ölkələri universitetlərinin 2-ci illik reytinqini müəyyənləşdirmişdir. Xəzər Universiteti Azərbaycandan ilk 70 ali təhsil müəssisəsi arasında yer almış tək universitetdir.

***

*Xəzər Universiteti ilk gündən beynəlxalq təcrübəyə əsasən quruldu və Azərbaycanda ingilis dilində tədrisə keçən ilk universitet kimi tanındı. Təhsil sahəsində ən qabaqcıl ölkələrin təcrübəsini öyrənmək və tətbiq etmək ilkinliyi də məhz Xəzər Universitetinə nəsib oldu. Dünya təhsil məkanında qabaqcıl mövqeyi və nüfuzu ilə diqqətçəkən Universitetin beynəlxalq əlaqələri yalnız təlim-tədris sahəsində deyil, yüksək ixtisaslı dünya insanı hazırlığında da əhəmiyyət daşıyır. Demokratizm və humanizm, plüralizm və şəffaflıq, müasirlik və təşəbbüskarlıq, ən son təlim texnologiyalarından istifadə, beynəlxalq proqram və layihələrdə fəallıq və digər bu kimi hallar bütünlüklə Universitetdə işgüzarlıq şəraiti yaradır, tələbələrin fəallığı və müstəqilliyini təmin edir.*

***Professor Əjdər Ağayev,***
***Azərbaycan Təhsil Şurasının sədri***

## Universitetin maddi-texniki bazası

Məhsəti küçəsi, 41 ünvanda yerləşən müasir avadanlıqlarla təchiz edilmiş tədris korpusunda (Neftçilər metrosunun yaxınlığında), şəhərin mərkəzində Bəşir Səfəroğlu küçəsi, 122 ünvanda yerləşən tədris binasında və 8-ci MKR, Əcəmi Naxçıvani küçəsi, 9 ünvanda (Ayna Sultanovanın heykəlinin yaxınlığında) 3 bina və ayrıca idman kompleksindən ibarət tədris kampusunda yüksək keyfiyyətli təhsil almaq üçün hər cür şərait yaradılmışdır.

## Təhsil və karyera imkanları

Təhsildə fərqlənən tələbələr təhsillərini Amerika, Kanada, İngiltərə, Fransa, Almaniya, Hollandiya, İsveç, İtaliya, Türkiyə, Çin, Yaponiya və s. ölkələrin tanınmış universitetlərində davam etdirmək imkanı qazanırlar.

Xəzər Universitetində əsas təhsil dili ingilis dilidir. Bu, tələbələrin müasir dərsliklərdən istifadə etməsi, təhsillərini xaricdə davam etdirməsi, xaricdən gələn müəllimlərin effektli dərs deməsinə geniş imkan verir. Məzunlar və yuxarı kurs tələbələri xarici şirkətlərdə yüksək maaşlı işlərə dəvət alırlar, eləcə də dövlət təşkilatlarında və ölkəmizin qabaqcıl şirkətlərində işləmək imkanı əldə edirlər.

## Təhsil haqqının ödənilməsində güzəştlər

TQDK-nın keçirdiyi imtahanlarda yüksək bal toplayan tələbələrə aşağıdakı qaydada güzəştlər edilir. İmtahanlarda:
650-700 bal toplayan tələbələr təhsil haqqından tam azad edilir.
600-649 bal toplayan tələbələr təhsil haqqının cəmi 25%-ni ödəyir.
550-599 bal toplayan tələbələr təhsil haqqının 50%-ni ödəyir.
500-549 bal toplayan tələbələr təhsil haqqının 75%-ni ödəyir.

**Tələbələr təhsil aldıqları müddətdə əsgəri xidmətdən azaddırlar.**

**Universitetdə bakalavr pilləsində aşağıdakı ixtisaslar üzrə kadr hazırlığı aparılır:**

**I qrup üzrə:**

- Kompüter elmləri
- Neft-qaz mühəndisliyi
- Kompüter mühəndisliyi
- İnşaat mühəndisliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Fizika müəllimliyi
- Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi
- Kimya mühəndisliyi
- Biotibbi texnika mühəndisliyi
- Mexanika mühəndisliyi

**II qrup üzrə:**

- Mühasibat uçotu və audit
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Tarix müəllimliyi
- Coğrafiya müəllimliyi
- Regionşünaslıq (regionlar üzrə)
- Beynəlxalq münasibətlər

**III qrup üzrə:**

- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- Xarici dil (ingilis dili) müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Filologiya (İngilis dili və ədəbiyyatı)
- Filologiya (Azərbaycan dili və ədəbiyyatı)
- Politologiya
- Tərcümə (ingilis dili və digər dillər)
- Dizayn

**IV qrup üzrə:**

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Psixologiya

**Ünvan: Məhsəti küçəsi, 41**
**(Neftçilər metrosunun yaxınlığında)**
**Əlaqə telefonları: (012) 323-93-13, (012) 408-81-78, (012) 421-79-27**
**Faks: (012) 498-93-79**
**İnternet: http//www.khazar.org**